GÜLƏMAİL MURAD

Zəfərnamə

Vətən Müharibəsi Qəhrəmanı şəhid Azər Yusiflinin
əziz xatirəsinə ithaf edirəm

"Elm və təhsil"
Bakı – 2021

Kitabın nəşrinə verdiyi dəstəyə görə Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin qardaşı Xəzər Yusifliyə təşşəkür edirik

Redaktor: **Arifə Arifqızı**
Bədii redaktor: **Murad Kənanoğlu**

Ön söz müəllifləri: **Ülviyyə Ağayeva**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı
Elnur Uğur Abdiyev
Şair-publisist, Prezident təqaüdçüsü

Vüsal Sultanov
Vətən Müharibəsi Qəhrəmanı Polkovnik

Güləmail Murad.Zəfərnamə. Kitab 2020-ci il Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin əziz xatirəsinə həsir edilib. Bakı, "Elm və təhsil", 2021, 124 səh.

Şair Güləmail Murad hərbi-vətənpərvərlik mövzusunda on altı kitabın müəllifidir. Aprel döyüşlərindən bu yana o, müharibə mövzusuna daha çox müraciət etmişdir. Milli Qəhrəmanlarımızın, Vətən yolunda canından keçən əsgər və zabitlərimizin həyat yollarını, igidliklərini işıqlandıran "Qayıdış", "Aprel döyüşləri", "Qəhrəmanlıq yüksəkliyi", "Günnüt əməliyyatı", "Canını Vətənə sərhəd elədi", "Döyüş yolları", "Akula ləqəbli kəşfiyyatçı" və "Tovuz döyüşləri" kimi kitabları ümumilikdə hərb tariximiz barədə təsəvvür yaradır. Oxuculara təqdim olunan "Zəfərnamə"də hərblə sülh, xeyirlə şər üz-üzədir və əsər ədalətli müharibənin bir gün mütləq sülhlə nidalanacağına inamın ifadəsidir. Vətən Müharibəsi Qəhrəmanı Azər Yusifliyə həsr olunmuş poemadan, onun şəxsiyyətini və döyüş yolunu canlandıran publisistik parçalardan ibarət olan kitab eyni zamanda lirik-poetik, həzin ovqatı ilə də oxucuların ürəyinə yol tapacaq.

4602000000
qrifli nəşr
N-98-2021

© "Elm və təhsil", 2021

"Sərhəd Qoşunlarının vəzifəsi çox məsuliyyətlidir və dövlət üçün çox əhəmiyyətlidir".

****

"Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir."

****

"Ordu bizim doğma ordumuzdur, ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır, ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik."

****

"Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Heydər Əliyev

"Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır... Ordumuzun maddi-texniki bazası yüksək dərəcədə möhkəmlənmişdir. Döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərmizin, zabitlərmizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib".

İlham Əliyev

REDAKTORDAN

1988-ci ilin təlatümlü hadisələri yaxşı heç nə vəd etmirdi. Zaman-zaman erməni xəyanətinə məruz qalan xalqımız çaxnaşmalara baxmayaraq, çox da narahat deyildi. Əsrin əvvəllərindəki qanlı-qadalı illəri, erməni-müsəlman davalarını, qəddar qonşularımızın nə qədər kinli və qəddar olduğunu çoxdan unutmuşdu. Ürəyi geniş, səxavətli xalqımız yersizlərə yer vermiş, dədə-baba torpaqlarımızda dövlət qurmuş ermənilərə hələ üstəlik bir muxtar vilayət də bağışlamışdı. Sovet məkanında "xalqlar dostluğu" nağılına bizim qədər uyan ikinci millət yoxdu. Halbuki yer verib yuxarı başa keçirdiyimiz yad millətdən, onun havadarlarından ən çox ziyan çəkən biz olmuşuq. Nankor qonşularımız isə soysuz dədə-babalarının uydurduqları "Böyük Ermənistan" mifini gerçəkləşdirmək üçün ən xırda fürsəti də fövtə vermirdilər.

Dağlıq Qarabağ ermənilərinin harınlayaraq, muxtar vilayəti Ermənistana birləşdirmək niyyəti bizə saçma görünürdü, Sovet İttifaqı buna yol verərdimi? Biz ki böyük vətənimizə - Sovetlərə həmişə sadiq olmuşuq, yağlı əppəyimizi böyük qardaşlarımıza göndərmişik, Bakı neftilə hərəkətə gələn sovet tankları dünyanın ən dəhşətli müharibəsində qazanılan qələbənin rəhni olub, 400 minə yaxın azərbaycanlı Böyük Vətən müha-

ribəsi dediyimiz savaşda canından keçib, xalqımız arxa cəbhədə ac-susuz gecə-gündüz ön cəbhə üçün əlləşib-vuruşub, üstəlik də faşistlərin işğal etdikləri ərazilərdən qaçqın düşən insanları öz evlərində yerləşdirib, son tikəsini bölüb. Ən kiçik yaxşılığı da unutmayan xalqımız heç kimdən xəyanət gözləmirdi.

Qarabağdakı ermənilərin "Hayastan, Hayastan" deyib, Stepanakertin küçələrinə töküldükləri bir vaxtda şayiə gəzirdi ki, SSRİ rəhbərliyi illərdir soyuq müharibə apardığı ABŞ-ın prezidenti ilə dənizin altında görüşüb, bu, xeyir əlamət deyil. Xalqımız şayiələrə uymasa da, şairimiz deyib ki, elin sözü əvvəl-axır düz olur. Stepanakertdən əsən sərt küləklər əslində Moskvadan üfürülürdü. Xalqımız bunu yalnız 1990-cı ilin 20 yanvarında anladı. Azərbaycan böyük fəlakət, xalqımız böyük imtahan qarşısında idi.

Dənizin altındakı görüş bəhrələrini verirdi artıq. Kremlin planları reallaşdırılırdı. ABŞ kimi superdövlətlə buynuzlaşan SSRİ adlı dövlət qəlpə-qəlpə dağılırdı. On beş respublika taleyin ümidinə buraxılmışdı və ən acınacaqlı vəziyyət yenə bizim taleyimizə yazılmışdı. İmperiya dağılsa da, Ermənistan onun vassalı olaraq qalırdı və bu, əsla bizim xeyrimizə deyildi. Sahibinə arxalanan Ermənistan torpaqlarımızı hissə-hissə işğal edirdi. İmperiyadan kənarda varlığını təsəvvür etməyən sapı yerli baltaların da xəyanəti ölkəmizi xaosa gətirib çıxarmışdı. Bilgə Kağanımızın nəsihəti bu

məqam üçün deyilmişdi:" Ey Türk, üstdə göy çökmədikcə, altda yer dəlinmədikcə, sənin elini, sənin törəni kim poza bilər?".

Qarabağ savaşı belə başladı. Ov tüfəngi belə əlindən alınmış əzabkeş xalqımız dişinə qədər silahlanmış imperiya əsgərlərilə üz-üzə dayanmışdı. Qeyrətli oğullar əliyalın da savaşmağa hazırdılar. Kimin əlinə nə keçdisə - dayandoldurum, qoşalülə, beşaçılan, mauzer, xəncər-bıçaq, silahlanıb düşmən üstünə atıldı. İşğal olunan torpaqların fəryadı, əsir götürülən insanların naləsi göylərə büləndoldu. Başı kəsilən əsgərlərimiz, dərisi soyulan uşaqlarımız, namusu tapdanan qadınlarımız yuxumuzu ərşə çəkdi. İndiyədək susan başbilənlər tariximizin qanlı səhifələrini gözlərimizin önünə sərdilər... Özümüz dedik, özümüz eşitdik. Şərqlinin müsibətinə dünya, hər zamankı kimi, kar-kor oldu. Tarix təkrar olunurdu, ermənilər üçün məqam düşmüşdü, yaşamadıqları genosidin qisasını bizdən aldılar. Müstəqillik əldə etsək də, dövlətçiliyimiz yenidən ölüm-qalım təhlükəsinin bir addımlığında idi.

Şükürlər olsun, xalq doğru qərar verdi və Heydər Əliyevi hakimiyyətə dəvət etdı. 1988-ci ildən hesablasaq, Azərbaycan 32 illik bir sınaq dövrü keçdi. Ermənistandan qovulan soydaşlarımızı yerbəyer etməmiş, qarabağlı vətəndaşlarımız didərgin düşdülər. Döyüşlərdə şəhid, itkin düşənlərimizin, əsir-girov götürülənlərimizin sayı-hesabı itdi.Torpaqlarının iyirmi faizi

işğal olunmuş, iqtisadiyyatı darmadağın edilmiş, bir milyon qaçqını olan bir ölkənin dirçəlməsi üçün xeyli vaxt lazım idi.

Qarabağ işğalda ikən heç bir azərbaycanlı özünü tam xoşbəxt hiss etmədi. Ümummilli bir xəcalət yaşayırdıq. Amma əzmimiz qırılmamışdı. Ölkəmiz ayağa qalxdıqca, ordumuz qurulduqca ümidimiz də artırdı, atəşkəs dövründə şəhid xəbərləri gələndə səbrimiz tükənirdi. Yəqin o nadir xalqlardanıq ki, müharibə istəyirdik. Ali Baş Komandanımızın əmrinə bənd idik.

Otuz il ərzində xalqımız bir əsrin ağrı-açısını yaşadı, yuxumaza belə girməyən nə dəhşətlərin şahidi olduq və qəhrəman, vətənpərvər, Vətənə ana deyən bir xalq olduğumuzu sübut etdik.

Bu otuz ildə Qarabağ savaşından çox kitablar yazıldı, çox yazılar yazıldı. Bu gün növbəti kitabını təqdim etdiyimiz Güləmail Murad müharibə mövzusunda yazanlarımızın ən fəallarındandır. Bir yerdə işlədiyimiz üçün onun müharibə, şəhid mövzüsüna nə qədər həssas olduğunu bilirdim. Aprel döyüşlərindən sonra çox narahat görürdüm onu, çox qayğılı gəzirdi. Bir gün soruşdum ki, niyə belədir, ailədə bir problem var yoxsa? Dedi ki, bir məqalə oxuyub, Samid İmanov adlı bir zabitimizin nəşini tapıblar, ovcunun içində qumbara varmış, təslim olmamaq üçün özünü partladacaqmış, o gündən xəstə kimidi, özünə yer tapa bil-

mir. Təzyiq xəstəsi olduğunu bildiyim üçün çox narahat oldum, təskinlik verməyə çalışdım.

Günlərin birində dedi ki, Samid İmanova bir əsər həsr edib, amma Samidin iki qəhrəman dostu haqqında da yazmağı düşünür, yoxsa rahatlıq tapmaz. Əsəri oxumaq üçün mənə verdi və beləliklə, onunla həm də yaradıcı əməkdaşlığımız başladı. Əsər mənə o qədər təsir etdi ki, bəzən redaktə yadımdan çıxırdı. Hər sətirdə müəllifin ürək çırpıntıları hiss olunurdu. Əsərin sonunda Samid mənə o qədər doğma olmuşdu ki, indi də onun şəkli harada qarşıma çıxsa, gözlərim yaşla dolur.

Aprel döyüşlərinə qədər Güləmail xanımın hərbi-vətənpərvərlik mövzusunda altı kitabı çapdan çıxmışdı. Lələtəpə zəfərimizin ildönümü ərəfəsində " Qayıdış" kitabı işıq üzü gördü. Azərbaycan Yazıçılar Birliyində şəhidimizin ailə üzvlərinin iştirakı ilə kitabın təqdimat mərasimi keçirildi. Neftçalalı şairimiz Elnur Uğur Abdiyevin təşkilatçılığı ilə kitabı həm də şəhidimizin vaxtilə oxuduğu məktəbdə təqdim etdik.

Güləmail Murad sözünün ağasıdır, ürəyində tutduğu kitabları da yazdı. Şəhid Milli Qəhrəman Murad Mirzəyevin döyüş yolundan bəhs edən " Aprel döyüşləri" də tezliklə nəşr və təqdim edildi. "Aprel döyüşləri" böyük maraqla qarşılandığı üçün Milli Qəhrəman Şükür Həmidova həsr etdiyi "Qəhrəmanlıq yüksəkliyi" kitabı da əlavə edilməklə Aprel döyüşlərinin üç

qəhrəmanının ömür yolunu işıqlandıran "Aprel döyüşləri" trilogiyası yarandı.

Şəkildə sağdan:
Güləmail Murad və Arifə Arifqızı

Şəhidlər haqqında yazmaq çox ağırdır, Güləmail xanım çox həssasqəlbli olduğu üçün ona bir az fasilə verməyi məsləhət görürdüm, çünki səhhəti üçün narahat idim. "Yaxşı", deyirdi, amma çox keçmədən özünəməxsus bir təvazökarlıqla, üzrxahlıq edirmiş kimi, "yeni bir yazı yazmışam, bir baxarsanmı" deyə, soruşurdu. Ürəyimdə "məmnuniyyətlə" deyib, aşkarda bir bacı ərkyanalığı ilə yüngülcə danlayırdım:"Yenicə özünə gəlmisən, bir az dincəlsəydin barı". Cavabı da həmişə eyni olurdu: "Neyliyim, yazmayanda da dinclik tapmıram axı. Ürəyimdə qaynayır, özümü şəhidlərə borclu bilirəm". Beləliklə, yeni kitablar yarandı: "Günnüt zəfəri", "Canını Vətənə sərhəd elədi", "Döyüş yolları", "Akula" ləqəbli kəşfiyyatçı", "Tovuz döyüşləri" və bu gün əlinizə aldığınız "Zəfərnamə".

Güləmail Muradın "Qarabağ harayı" ilə başlanan müharibə mövzüsü "Zəfərnamə" ilə müjdələndiyi üçün bu həsrətlə gözlədiyimiz şanlı-şövkətli zəfəri bizə yaşadan igid oğullarımıza minnətdarıq. Ali Baş Komandanımız İlham Əliyev böyük sərkərdəlik qabiliyyəti nümayiş etdirərək, ata vəsiyyətinə əməl etdiyinə görə bir millət kimi qürurluyuq. Şəhidlərimizin ruhları qarşısında baş əyirik. Qəhrəman övladlar yetirmiş, "Vətən sağ olsun" deyən ata-anaları bağrımıza basırıq, qazilərimizin üzləri ağ, işləri avand olsun. Vətən Müharibəsində, Qarabağ uğrunda qan tökən, tər tökən hər bir döyüşçümüzlə fəxr edirik. Üçrəngli bayrağımız daim ucalıqlarda dalğalansın inşallah.

Qarabağ mövzusu dərindir, ümmandır, hələ çox kitablar yazılacaq, dastanlar bağlanacaq. Gələcək nəsil həqiqətləri bilməlidir, qəhrəmanlarını tanımalıdır, onlardan örnək almalıdır. Müharibə bitib, amma qələmini silaha çevirənlər daim döyüşdədirlər. Bilirəm ki, Güləmail Murad dəstənin ön sırasındadır və tariximizin salnaməsinə yeni-yeni səhifələr əlavə edəcək.

Arifə Arifqızı

QƏHRƏMANLIQ DASTANI

Çağdaş ədəbiyyatımızda vətənpərvərlik mövzusuna ən çox müraciət edən yazarlarımızdan biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü Güləmail Muraddır. Hörmətli şairəmizin yaradıcılığının böyük əksəriyyətini vətənpərvərlik mövzusunda yazılmış əsərlər təşkil edir. O, "Qayıdış", "Aprel döyüşləri", "Qəhrəmanlıq yüksəkliyi", "Günnüt zəfəri" və bir çox vətənpərvərlik mövzusunda yazılmış kitabların müəllifidir. Güləmail xanımın sonuncu "Zəfərnamə" kitabı isə Qarabağ müharibəsində şücaət göstərmiş və qəhrəmancasına şəhid olmuş oğullarımızdan birinə – Vətən Müharibəsi Qəhrəmanı, şəhid Azər Yusifliyə həsr olunmuşdur.

Bu kitab şəhidlərimizi ictimaiyyətə tanıtmaq, onları ehtiramla yad etmək, öz milli kimliyimizi dərk etmək baxımından vaxtında yazılmış dəyərli bir əsərdir. Kitabda müəllif qəhrəman şəhidimizin həyatı və keçdiyi şərəfli döyüş yolu haqqında geniş məlumat verməklə onun xarakteri – vətənpərvərliyi, düşmənə qarşı nifrət və qəzəbi, hərbə olan böyük sevgisi haqqında aydın təsəvvür yaradır. Müəllif Güləmail Murad şəhid Azər Yusiflinin ailə üzvləri, müəllimləri, döyüş yoldaşları ilə görüşmüş, həmsöhbət olmuş, onların Azər haqqındakı xatirələrini, düşüncələrini, keçirdikləri hiss və həyəcanları kitabında əks etdirmişdir.

Əsərdə diqqət çəkən məqamlardan biri də Azər Yusiflinin müharibə meydanında göstərdiyi qəhrəmanlıqların onun döyüş yoldaşlarının dilindən, onların sözləri ilə verilməsidir. Bununla, müəllif Güləmail Murad Azərin timsalında Vətən Müharibəsinin iştirakçısı olmuş bütün əsgərlərimizin yazdığı qəhrəmanlıq salnaməsini, onların vətənə olan sonsuz sevgisini, döyüş ruhunu məharətlə oxucuya çatdırır.

Güləmail xanımın yazdığı digər əsərlərində olduğu kimi, "Zəfərnamə"də də onun şairanə ruhu və şairlik üslubu aydın şəkildə özünü büruzə verir. Belə ki, Güləmail Murad bu əsərində müəllifi olduğu "Azər və Songül – Zəfərnamə" poemasına da yer vermiş, Azər Yusiflinin həyatını, daxili dünyasını bədii boyalarla əks etdirmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, əminliklə demək olar ki, "Zəfərnamə" kitabının nəşri, geniş oxucu kütləsi, xüsusilə də gənc nəsil arasında təbliği məqsədəuyğundur.

Ülviyyə Ağayeva
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

TARİXİ YAŞADAN ƏDƏBİYYAT

Keçmişi yaşadan təkcə tarix deyil, eyni zamanda, ədəbiyyat da bu missiyanı yerinə yetirir. Ədəbiyyatın yaşatdığı əbədiyaşarlıq hüququ qazanır, sevgi ilə qəlblərin dərinliyində kök atır. Bu gün qarşımda sabah dünyaya gələcək bir körpənin qığıltılarını duyuram, sözün bətnində doğuş sancısının ağrılarını hiss edirəm. Bəli, yaxın günlərdə işıq üzü görəcək bir kitabla ünsiyyətdəyəm. Nə gizlədim, oxuduqca bəzən ağlayıram,bəzən öz-özümə qışqırıram:"Halal olsun!" Heç şübhə yoxdur ki, bu kitabın ərsəyə gəlməsi üçün müəllif necə sarsıntılar keçirib, nə qədər acıları paylaşıb, nə qədər doğmaların göz yaşlarında isladıb öz gözlərinin əksini. Sətir-sətir, cümlə-cümlə, söz-söz adamın iliyinə yeriyən bu qəhrəmanlıq nümunəsini özündə əks etdirən kitab oxuduqca elə mənim də qanıma hopur. Adam kitabdan ayrılmaq istəmir. "Zəfərnamə" adlanan, epos təsiri bağışlayan bu qəhrəmanlıq dastanı xalqımızın çoxəsrlik yaddaşından süzülüb gələn, bədii düşüncəsində özünə yer alan formada yazılmışdır. Təkcə formanın deyil, məzmunun da çəkisi, bədii deyimlərin orijinallığı bir an məni kitab haqda yazmağa vadar elədi. İllərdir yaxşı tanıdığım, ömrünün çoxunu Vətənpərvər mövzulara həsr etmiş, vətən qəhrəmanlarını sözünün bayrağı olaraq ucaltmış istedadlı şairə Anamız

Güləmail Muradın təxminən 8 kitabının ön sözündə fikir sahibiyəm. Bu kitab əvvəlki kitablardan fərqlənir. Düzdür, bu əsərdə də Vətənə məhəbbət və vətəndaş təəssübkeşliyi leytmotivdir. Ancaq fərq ondan ibarətdir ki, bu kitab əvvəlki kimi, qələbə arzusunda olan şairin yox, qələbənin şirinliyini dadan, onu yaşayan müzəffər bir xalqın şairinin qəlbindən süzülən sevinc,sevgi qarışıq bir hissin təzahürüdür. Əsər boyu DSX-nin baş giziri, Vətən Müharibəsi Qəhrəmanı Azərin igidliyinin tərənnümü bir vətəndaş olaraq, məni mənən ucaldır.DSX-nin baş giziri Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin döyüş yoluna xüsusi işıq salan bu əsər vətən sevdalı bir zəkanın işığından doğmuşdur. Müəllifin Vətən sevdası hələ Ağstafaya yollanarkən yazdığı bu misralarda sevgi ilə pıçıldayır. Ən güclü səs pıçıltıdır elə:

Ellərin vüqarıdır,
Dillərin şüarıdır.
Təmizlik diyarıdır,
Paklıq, şəfa torpağı-
Ağstafa torpağı.

Ən gözəl şərqinin sözləri ola biləcək bu misraların müəllifinin vətən sevgisi qarşısında heyrət edirəm. Əsəri oxuyuram. Şəhid haqqında yazının nə qədər mə-

suliyyətli olduğunu gözəl anlayıram. Aşağıdakı misralar fikrimə öz möhrünü vurur:

Allahım ver dözümü,
İtirməyim sözümü.
Tapmaq üçün özümü,
Hərdən itməyim gəlir.

Həqiqətən də, belədir. Hərdən özümüzü itirdiyimizdə tapırıq gerçək üzümüzü. Nə qədər təzadlı səslənsə də, ilk dəfə bəlkə, özümüzü itirdiyimizdə özümüzlə üz-üzə qalırıq. Müəllifin burada narahatçılığı başadüşüləndir. O tam qüvvəsilə Vətən uğrunda canından keçmiş Şəhidimiz qarşısında vətəndaş vəzifəsini elə yerinə yetirmək istəyir ki, gələcəyə nəsə irs bağışlaya bilsin. Onun ədəbi irsində silsilə xarakterli Vətən mövzulu əsərlərin hər biri kimi "Zəfərnamə" də xalqımızın qəhrəmanlıq tarixinin ən dəyərli sənət əsəridir. Təsadüfi deyil ki, bu əsər DSX-nin yaradılmasının102-ci illiyi münasibətilə keçirilən müsabiqədə birinciliyə layiq görülmüşdür. Kitabda sərhədçilərə aid şeir də diqqətimi çəkir:

Əlində avtomat, çiyin-çiyinə
Vətən sərhədində duran əsgərlər!
Günəş doğanacan nə dinclik bilən,
Nə kirpik-kirpiyə vuran əsgərlər!

Bu nümunəni oxuduqca gözlərini səngər edib gecəsini gündüzünə qatan sərhədçilərimizin xidmətləri gözlərimiz önündə canlanır. Oxucu özünü bir anlıq onların yanında görür.Güləmail Murad yaradıcılığının gücü də bundadır. Hər bir əsərinə doğma balasıtək yanaşması, sözün nazını çəkməsi, bəzən sözü oxşaması, sığallaması onun sözünün hər qəlbə rahat yol tapmasını təmin edir. Bu əsərdə Azərlə bərabər Songül obrazı da diqqət mərkəzindədir. Sevgisinə sonadək sadiq qalacağına Vətən andı içən Songül obrazı bu gün sevgisi ilə sübut edir ki, Leylilər bu gün də var. Songül obrazının şəxsində əsl sevginin ,qəhrəmanlığın simvolikası qabarıq nəzərə çarpır. Müəllif Songül obrazı ilə təkcə Azərbaycan kişisinin deyil, eyni zamanda, qadınının da əqidə saflığının, məslək birliyinin, sevda yolçuluğunun aliliyini göstərir. "Zəfərnamə" sevgidən yoğrulan monumental abidədir. Bu əsərin sanbalı gün keçdikcə daha da artacaq. Ümid edirəm ki, bu əsər gələcəkdə dərsliklərdə, 44 günlük Vətən Müharibəsinə həsr olunan mövzularda diqqət mərkəzində saxlanılacaq.

Əsər haqda çox yazmaq olar, amma fikrimə burada nöqtə qoyur, Güləmail Anaya yeni-yeni yaradıcılıq uğurları arzu edirəm. Şərəf dolu tarixi keçmişimizi gələcəyə daşıyan bu ədəbi nümunə, zəfər tariximizdə müstəsna xidmətləri olmuş qəhrəmanımızdan bəhs edən bu əsərin oxucusunun bol olacağına əminəm. Ta-

rixi əbədiləşdirən ədəbiyyatın yaradıcısı olan işıqlı şairəmizin Vətən naminə çəkdiyi bu əzablı, lakin şərəfli işinə yalnız və yalnız uğur, ürəkdən bir əhsən deyirəm! Uğur yoldaşınız olsun daim, əziz Güləmail xanım!

Elnur UğurAbdiyev
Şair-publisist, Prezident təqaüdçüsü

SEVGİ ELƏ SÜLH DEMƏKDİR

Bu kitab haqqında eşidəndə tez bir zamanda oxumaq istədim. Xalqımızın həssas yeri olan müharibənin, Vətən yolunda şəhid olan hərbçilərimizin döyüş yolunun, sevdiklərini itirən ana-bacılarımızın ağrı-acılarının əsərdə necə əks olunduğunu görmək istəyirdim. Ən əsas da niyə bu qədər marağım vardı əsərə? Çünki bir Azərbaycan zabiti olaraq, mən də vəzifəmin başında , qorxusuz döyüş yoldaşlarımın yanında olmuşdum. Yaşadığımız bu unudulması imkansız günləri, gecələri qulaqlardan getməyən dəhşətli səsləri, keçirilən sarsıntıları əsərdə görə biləcəkmiyəm, deyə düşünürdüm. Bu mövzuda, qəhrəmanlıq motivlərinin əsas yer aldığı, vətənpərvərlik ruhuna köklənmiş, igidlərimizə həsr olunmuş çox əsərlər yazılıb. Ancaq bir fərq var ki, müharibəyə qədər yazılan bir çox əsərlər xalqımızın igid, mərd oğullarını yetişdirmək, onları ruhlandırmaq, Vətən torpağının namusumuz olduğunu aşı-

lamaq məqsədi daşıyırdı. Biz bu ruhla, bu qayə, bu amalla böyüdük. Daha uşaq ikən xalqımızın məruz qaldığı erməni vəhşiliyi bizdə qisas hissini alovlandırırdı. Məni hərbiçi olmağa yönəldən düşməni torpaqlarımızdan qovmaq, xalqımıza edilən zülmün intiqamını almaq niyyəti idi.

Kitabın hər sətrində mənim yaşadıqlarım, keçirdiyim hisslər var, sanki yazıçı bizimlə birgə səngərdə o dəhşətli anları yaşamış, ağır mənzərələri görmüş və isti-isti qələmə almışdır. "Hərbçi" dedikdə ilk ağıla gələn forma və silah hüdudlarını aşmış, dərin mətləblərdən, hərbin əsas məqamlarından söz açmışdır. Sevməyi də, qorumağı da ən yaxşı hərbiçilər bacarar fikri bu əsərin özəyidir. Namus nədir, gecə-gündüz keşikdə durmaq, sevdiklərinə qalxan olmaq, həyatla ölüm arasındakı incə cizgini, ailəni şərəf və ləyaqət timsalı bilib, Vətəninə canı bahasına sahib çıxmaq hər bir insanın həyat tərzidir!

Bir müharibə iştirakçısı kimi bu kitabda o günlərdən , ömür səhifəmdən çox şeyi tapdım. Doğrudur, müharibədə yaşanan əzabların, hisslərin sözlərlə ifadəsi mümkün deyil, orada olmayan biri üçün müharibənin gerçək üzünü təsəvvür etmək çətindir, lakin yazıçı bunu ən dərin duyğularına qədər hiss etdirməyi çox gözəl bacarmışdır. 44 günlük müharibədə gözlərində sevdiyinin simasını canlandırıb, onun varlığından güc alaraq, eyni zamanda, içində intiqam hssi ilə irəliləyər-

kən torpaq yatağı, hava qidası, ardı-arası kəsilməyən silah səsləri isə marşı olmuşdur baş qəhrəmanın. Müharibənin hər anını yaşadığım bu əsərdə məni duyğulandıran məqamlardan biri də Vətən sevgisi ilə yanaşı, bir-birinə qəlbən, ruhən bağlı olan aşiqlərə yer verilməsi idi. Çətin keçən günlər, ayrılıq, həsrət kimləri yormaz, kimləri üzməz ki?! Bu ağrılı günlərdə səngərdə Vətənin keşiyində duran bir döyüşçünün güc aldığı nə ola bilərdi? Əlbəttə, ona sadiq olan yarı, onun həsrəti ilə döyünən ürək, hər an ondan gələcək xəbəri gözləyən geridə qoyduğu sevdiyi! Qaranlıq səmanı aydınladan, gecəni gündüzə çevirən odlu silahların yağış kimi yağdığı, bir az əvvəl bərabər ikən deyib-güldüyü silah yoldaşlarının cansız bədənləri üzərindən keçdiyi bu cəhənnəmdə soyuq və daşlaşmağa başlayan qəlbi isidə biləcək tək nəsnə gerçək sevgidi. Kitabında sevgiyə yer verdiyi üçün dəyərli yazıçıya öz minnətdarlığımı bildirirəm. Çünki sevməyi bilməyən biri torpağına, namusuna, yurduna sahib çıxa bilməzdi. Müəllif bu sevginin ən incə motivləri ilə bəzən qürur hissi, bəzən kədər yaşadır, eyni zamanda da duyğulandıran məqamları kitabdan ayırıb onun təsirindən çıxmağa imkan vermirdi. Dəyərli şairimiz Azərbaycan xanımını çox gözəl təqdim etmiş, ona həssaslıqla yanaşmışdır. Bu qədər qəhrəman oğulları, ölməz şəhidləri kim yetişdirə bilərdi? Təbii ki, bu sualın cavabı mətnin içindəki bədii kodda açıq-aydın görünür: Sevgi!!! O sevgi ki,

Azərlərin, Songüllərin timsalında əbədədək dipdiri qalacaq. Əsərin mövzusu müharibə olduğundan təxəyyülümüzdə yaranacaq ağrılı səhnələri sevginin zərifliyi əvəz edəcək.

Vüsal Sultanov
Vətən Müharibəsi Qəhrəmanı
Polkovnik

G İ R İ Ş

Azərbaycanın tarixinə, millətimizin keçmişinə bir səyahət etsək, şanlı salnaməmizə adları yazılmış nə qədər dövlət başçıları, sərkərdələr, xalq qəhrəmanları görərik. Azərbaycan dövlət müstəqilliyini itirəndən sonra da böyük hərbçilər yetirmişdir. Döyüşkənlik, vuruşqanlıq millətimizin tinətində var.

Rusiya İmperator ordusunun azərbaycanlı artilleriya generalı, Birinci Dünya müharibəsində diviziya komandiri, 1904-1905-ci illər Rus-yapon müharibəsində komandan kimi iştitrak etmiş, sonralar Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general-leytenant Səməd bəy Mehmandarov, "rus artilleriyasının Allahı" adlandırılan, Rus-yapon müharibəsində batareya komandiri, hərbin sirlərini öyrənmək üçün yazdığı dərs vəsaiti, hərbi dərsliklər müəllifi və müəllim, ilk hərb nazirimizin müavini general-leytenant Əliağa Şıxlinski və bir çox yüksək rütbəli hərbçilərin adları hərb tarixinə yazılıb. İkinci Dünya müharibəsi də neçə-neçə həmyerlimizin hərb qabiliyyətini üzə çıxardı. İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanov,

Böyük Vətən müharibəsində batalyon komandiri olmuş Sovet İttifaqı Qəhrəmanı mayor Müseyib Allahverdiyev, əfsanəvi Mixaylo – Mehdi Hüseynzadə gənc yaşda adlarını hərb salnaməmizə yazdılar.

Sovet imperiyası qeyri-rus xalqlar içərisindən hərçilərin yetişməsinə qısqanclıqla yanaşırdı, sovet dövründə müstəqilliyi məhdudlaşdırılmış Azərbaycana qarşı daha şovinist münasibət vardı. Bu da səbəbsiz deyildi, ruslarla türklər arasında çox savaşlar olmuşdu və türklərin döyüşkənliyi cümlə-cahana bəlli idi. Amma Azərbaycan zaman-zaman böyük xadimlər yetirirdi. Azərbaycanın böyük oğlu Heydər Əliyev də yüksək rütbəli hərbçi, görkəmli, uzaqgörən siyasi xadim idi. O bilirdi ki, ölkəmiz gec-tez müstəqilliyini bərpa edəcək. Bunun üçün hərbi kadrların yetişməsi zəruridir. Ulu Öndər Heydər Əliyev hər bir sahədə olduğu kimi, Azərbaycanın ordu quruculuğunda da müstəsna xidmət göstərib. 1971-ci ilin aprel ayında Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin fəaliyyətə başlaması tarixi bir hadisə idi. Ali hərbi məktəbin yaradılması da Ulu Öndərin xalqımız qarşısında böyük xidmətidir. Milli ordu quruculuğu da onun adı ilə bağlıdır. Bu ordu nə çətinliklərlə, hansı təzyiqlərlə qurulub, buna hamımız şahidik. Bu gün o ordunun sayəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ulu Öndərimizin vəsiyyətinə əməl olundu.

Gənc nəsil əcdadlarından örnək götürdü, xalq bir yumruq kimi dövlətinin rəhbərinin ətrafında birləşdi və artıq üçrəngli bayrağımız Qarabağda dalğalanır. 44 gün içində düşməni əzən, dünyanı mat qoyan oğullar, Azərbaycan xalqı əbədiyyət boyunca sizə minnətdar olacaq.

SƏRHƏDÇİLƏR

Əlində avtomat, çiyin-çiyinə
Vətən sərhədində duran əsgərlər!
Günəş doğanacan nə dinclik bilən,
Nə kirpik-kirpiyə vuran əsgərlər!

Vətənə yad gözlə baxanlar olsa,
Qılınc tək çatarsız qaşlarınızı!
Üçrəngli bayrağa əymisiz yalnız
Qürurla ucalan başlarınızı!

Başınız üstündə ulduzlu səma,
Siz nəyi düşünüb anırsınız hey?
Siz də bu torpağın ulduzlarısız,
Gecələr sübhədək yanırsınz hey...

Silahınız sazdır sinəniz üstə,
Səssiz oxuyursuz Vətən havası...
Siz varsız - zəfərlə sonuclancaq
Düşmənlər başlayan torpaq davası!

Təkcə torpağın yox, sizlər həyatın,
Sülhün keşiyində dayanmısınız!
Durmusuz müqəddəs məzarlar üstə,
Körpə beşiyində dayanmısınız...

Səmada quşları, yerdə gülləri,
Çiçəkli bağları qoruyursunuz.
Keçmişin, bu günün keşiyin çəkir,
Gələcək çağları qoruyursunuz.

Axır gəlib çatdı o zəfər günü-
Sədası ürəkdə, izi yoldadır.
Nə qədər ananın qulağı səsdə,
Nə qədər gözəlin gözü yoldadır!

Əsgər oğullarım, qoy Tanrı özü
Sizi hifz eləsin qada-baladan!
Bu çətin, şərəfli xidmətinizdə
Köməyiniz olsun Böyük Yaradan!

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

S Ə R Ə N C A M I

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına " Vətən Müharibəsi Qəhrəmanı" adı verilsin:

Yusifli Azər Nazim oğluna (ölmündən sonra)

9 dekabr 2020-ci ildə

Əziz oxucular, 30 ildi ki, hər bir vətəndaşımız, soydaşımız, bütün Azərbaycan xalqı bir müqəddəs arzu ilə yaşayırdı. Ən əziz bayramlarında, ən nüfuzlu kürsülərdə, ən möhtəşəm məclislərdə, dualarında, niyyətlərində bir arzu səsləndirirdi:" O gün olsun Qarabağda, Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə üçrəngli bayrağmız dalğalansın!" Şükürlər olsun, arzumuza çatdıq. Bu gün vüqarla deyirik: Qarabağ Azərbaycandır!

Əziz vətənsevdalı şəhidlərim!

Müqəddəs ruhunuz uçdu göylərə ,
Tanrı ağuşuna aldı sizləri.
Ən gözəl istəkli mələklər kimi
Cənnət bağçasına saldı sizləri.

Bilirəm, məsuddu indi ruhunuz,
Zəfər təntənəli bayramdı bu gün.
Şuşaya sancılıb Vətən bayrağı,
Qarabağım Azərbaycandı bu gün!

Bəli, əziz oxucular, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ - Vətən müharibəsi başlayandan yenə də mənim iç dünyam bir dəniz kimi təlatümdədi. Biz bir əsrə bərabər 44 gün yaşadıq. 44 gün oğullarımız meydandaydı, analarımız əlləri göydə, dillərdə yalnız qələbə sədası vardı. Bu dəfə öldü vardı, döndü yox! Bütün

Azərbaycan ayaqüstə idi. Dünyanın harasında azərbaycanlı vardısa, orada "Ya Qarabağ, ya ölüm!" nidası vardı. Ölkəmizin başçısı da "Qarabağ Azərbaycandır!" dedi, xalq da "Qarabağ Azərbaycandır!" dedi. Biz zəfər çalacağımıza heç vaxt bu qədər inanmamışdıq.

Mənim də qəlbimdən gələn səslər deyirdi ki, Vətən müharibəsində mütləq qələbə, zəfər bizim olacaq. Qarabağ Azərbaycanın üzük qaşıdı. O qiymətli qaş yerinə qayıdaçaq.

Sokrat deyirdi: "Qəlbimdən gələn səslər mənə çox şeylər öyrədir". Müharibədən, şəhidlərimizdən, igid döyüşçülərimizdən yazanda bir ümid közərirdi ürəyimdə, qəhrəmanlarımızı tanıdıqca, onların igidliyini qələmə aldıqca, ümidim daha da işıqlanırdı: belə oğulları olan Vətən yaralı qala bilməz, torpaqlarımızı gec-tez murdar düşməndən təmizləyəcəklər. Bir səs hey diqtə edirdi:"Qələbə yaxındadır!"

Bu o səsdir ki, Günnüt şəhidi Adil Tatarova həsr etdiyim " Günnüt zəfəri " kitabını şəhidnamə kimi yazanda, bir gün Zəfərnamə yazacağımı da pıcıldayırdı. "Şəhidnamə" şeirimi oxuyan akademik Nizami Cəfərov kitabın ön sözünün sonunda yazmışdı: "Günnüt zəfəri" nə qədər ağrılı bir şəhidnamədirsə, o qədər də qürurverici bir zəfərnamədir". Uzaqgörən söz bilicimiz əslində müjdəni vermişdi.

Bəli, əziz oxucular, sizə təqdim etdiyim "Zəfərnamə" mənim gerçəkləşən arzumdur. Şükürlər olsun

ki, böyük Zəfərimizə mən də kiçik bir töhfəmlə qoşula bildim.

Rəbbimin köməkliyi, sərkərdəmizin rəhbərliyi, ordumuzun gücüylə torpaqlarmız azad olundu. Hələ kitablar bundan sonra yazılacaq, dastanlar bundan sonra bağlanacaq. Azərbaycanın şanlı tarixinə adları yazılan qəhrəmanlarımızı yeni-yeni nəsillər tanıyacaq, onlartla fəxr edəcəklər.

* * *

Sentyabrın 27-dən gözlər televizora dikilmişdi. Cəbhədən gələn xəbərlərə müntəzir idi xalq. O günlər cəbhə xəbərləri insanlarımız üçün sudan-çörəkdən vacib idi. İgidlərimiz bizi çox intizarda qoymadılar. Dövlət başçımız ekranda görünəndə ürəyimiz sürətlə çırpınmağa başlayırdı. Ali Baş Komandanımızın ciddi görkəmində bir işartı axtarırdıq. Və qələbə xəbərləri ard-arda gəldikcə şirin yuxu görürdük sanki. İlahi, möcüzə baş vermişdi, otuzillik həsrətin buzları əriməyə başlamışdı, payızın ortasında bahar gəlmişdi. İlham Əliyev: "Qarabağ Azərbaycandır!" deyəndə bizim də səsimiz onun səsinə qarışıb əks-səda verirdi. Xalq sevinc içində intəhasız dəniz kimi çalxalanırdı.

Qəhrəmanlarımızı bir az sonra tanımağa başladıq. Bilirdik ki, ordumuz cəsarətlə döyüşür, ekranlarda darmadağın edilən düşmən tanklarını, top-tüfəngini, havaya sovrulan kazarmalarını, sədlərini alqışlarımızla

müşayiət edirdik. Bilirdik ki, yaralı torpaqlarımızın, qaçqın düşən ellərimizin qısasını alan Azərbaycan oğullarıdır. Onlar üçün gecə-gündüz dua edirdik, daha bir möcüzə diləyirdik Allahdan: "Əsgərlərimizin, zabitlərimizin burnu da qanamasın, düşmən güllələri igidlərimizə dəyməsin". Amma bilirdik, torpağa qan qarışanda Vətən olur, qurbansız qələbə olmur...

Bir-bir şəhid xəbərləri gəlməyə başladı. Bir gözümüz güldü, bir gözümüz ağladı. Qürur hissi isə hər hissdən üstün idi. Xalqımızın nə igid oğulları varmış, neçə illərin yarasına məlhəm oldular, qeyrət abidəsinə çevrildilər, artıq illərdir fəlakətimizi görməzdən gələn dünyanın gözünə dik baxırıq, artıq torpaqları işğal olunmuş ölkənin boynubükük əhalisi deyilik, artıq qaçqın-köçkün deyilik, müzəffər ölkənin vətəndaşlarıyıq. Bu sonsuz səadəti bizə yaşatmaq üçün Vətən oğulları ölüm-dirim savaşına girdilər, şəhid oldular, qazi oldular.

Bir gün yenə televiziya xəbərlərində şəhidlərimizdən danışdılar. Haqqında qürurla danışılan qəhrəman şəhid mənim yerlim imiş, Ağstafa rayonunun yetirməsi imiş. Böyük Kəsik kəndindən olan Azər Yusifli Zəngilan rayonu uğrunda gedən döyüşlərdə igidliklə vuruşub, oktyabrın 21-də şəhidlik zirvəsinə ucalıb.

1967-ci ildən həmişə qatarla gedib-gəldiyim Bakı – Ağstafa yolunu xəyalların qanadında qət etdim. Hara-

ları gəzdim, haraları gördüm, kimlərlə görüşdüm doğma yurdumda-yuvamda...AĞSTAFAMDA

Gözün dərinliyində
Hərdən itməyim gəlir.
Sözün şirinliyində
Hərdən itməyim gəlir.

Dünya, ulu dünyadan,
Qəmlə dolu dünyadan.
Sizinlə bu dünyadan
Hərdən itməyim gəlir.

Allahım ver dözümü,
İtirməyim sözümü.
Tapmaq üçün özümü,
Hərdən itməyim gəlir.

Xəyal atı yüyürək olur. Beləcə düşüncələr dənizində yaşıl ormanlı, güllü-çiçəkli Ağstafa torpağına varıram.

Ellərin vüqarıdır,
Dillərin şüarıdır.
Təmizlik diyarıdır,
Paklıq, şəfa torpağı-
Ağstafa torpağı.

Vəfalıdır dostlara,
Düz əhdə, saf ilqara.
Bütün vəfadarlara
Bura vəfa torpağı-
Ağstafa torpağı.

Gəlsə əgər düşməni,
Müxənnətə, yağıya
Bu yurd cəza məskəni,
Bu yurd cəfa torpağı-
Ağstafa torpağı.

Suyu ələm dağıdır,
Havası qəm dağıdır,
Sağlamlıq ocağıdır,
Bu yer şəfa torpağı-
Ağstafa torpağı.

Beləcə şəhid sorağıyla durnalar köçündəyəm... Kürün körpüsündəyəm.

Ana Kür öz qımqımasında, mən də öz içimdəki hay-həşirimdə, şəhid yollarına səs salıram...

Bir tərəfdə Ceyrançöl uzanır, bir tərəfdə Kür çayı baş alıb gedir, anadil nəğməli Qarayazı meşəsini ötüb, Poylu körpüsünü keçib gedirəm...

Doqqazında üçrəngli müqəddəs bayrağımız dalğalanan şəhid ocağındayam. Bir ziyarətgahın astanasındayam. Darvazadan o yanda başqa bir dünya var. Şəhid Azər Yusifli dünyası...

Bu sözü çox demişəm, şəhid anaları, şəhid ataları, ailə üzvlərilə görüşlər mənə çox ağır təsir edir. Vətən yolunda canından keçəcək qədər qiymətli övladlar yetirmiş valideynlərin hüzurunda söz acizdir, nə deyəsən? Bir üzü qız, bir üzü gəlin şəhid xanımlarına necə təsəlli verəsən? Şəhid balasının başını necə sığallayasan, əlin od tutub yanar axı...

Bu gün də eləcə... Başımı şəhid Azərin hüzurunda əymişəm. Başımı qaldırıb şəhid doğmalarının üzünə baxa bilmirəm. Susuram...

Azərin bibisi Nailə xanım duruxduğumu görüb sükutu pozdu:

-Azər haqqında danışmaq nə qədər ağrılıdırsa, bir o qədər də qürurvericidi. Kədərlidi, ona görə ki, heç bir mənfi hərəkəti olmayan

insandan bəhs edərkən, onun o müsbət keyfiyyətləri kino lenti kimi gözlərin önündə canlanır və insanın içini göynədir. O gülər gözlü, təbəssümlü çöhrəni bir daha görməyəcəyimi fikirləşəndə dəli olmğım gəlir. O mənim üçün yaşayır, elə bilirəm ki, yenə iş başındadı, öz vəzifə borcunu məsuliyyətlə yerinə yetirir, öz dostları ilə səmimi deyir-gülür. Tez-tez qonağım olardu, gəlişi ilə hamımızı sevindirərdi, maraqlı söhbətlər edərdi. General Elçin Quliyevə xüsusi rəğbəti vardı, hətta yemək yediyi zaman onun adı çəkiləndə çəngəlbıçağını əlindən yerə qoyar, stulda oturuşunu düzəldər, özünün xüsusi bir təbiriylə ehtiramla ondan danışardı... Onun hərbçi intizamından, tərbiyəsindən irəli gələn xüsusiyyət idi bunlar. Azər vətənpərvər ruhda böyümüşdü, bəlkə bu ona gendən keçmişdi, babam İkinci Dünya müharibəsində beş il döyüşmüşdü, qardaşım I Qarabağ döyüşlərində iştirak etmişdi, müharibə veteranıdır, Azər onun söhbətlərinə maraqla qulaq asardı, dayısı hərbçidir, bibisi oğlu Murov dağda düşmənlə üzbəüz təmas xəttində hərbi xitmətdə olduğu vaxt həyəcanla izləyərdi o günləri. Ona görə o, vətənpərvər və qorxmaz idi. Mən onun vətənpərvərliyi qarşısında baş əyirəm. Şagirdlərimə vətənpərvərlik haqqında çox danışmışam, lakin bu yaşımda əsl vətənpərvərliyi Azərdən öyrəndim. Özümə söz vermişəm ki, Azərdən öyrəndiklərimi öz şagirdlərimə daha da çox

aşılamağa çalışacağam. Kaş Azər dediklərimi eşidəydi, yəqin ki, sonsuz qürur duyardı...

Azərin atası Nazim kişi asta-asta söhbətə qoşuldu, Azərin tərcümeyi-halından başladı.

Şəkildə sağdan: Azərin babası Yusif kişi, şairə Güləmail Murad, Azərin nişanlısı Songül, atası Nazim kişi və bibisi Nailə xanım.

-Azər 28 mart 1994-cü ildə Böyük Kəsik kəndində anadan olmuşdur. 2000-ci ildə Böyük Kəsik kənd tam orta məktəbinin birinci sinfinə gedib. Onun ibtidai sinif müllimi anası Yeganə xanım olub.

Məktəbi 2011-ci ildə bitirib. Hərbçi olub Vətənə xidmət etmək onun uşaqlıq xəyalı idi və bu məqsədlə sənədlərini Sərhəd Qoşunlarının ali məktəbinə təqdim etdi, çox təəssüf ki, qəbul ola bilmədi. O, 3 aprel 2012-ci ildə həqiqi hərbi xidmətə çağırıldı. Hərbi xidmətini Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 11-ci bölüyündə kiçik çavuş rütbəsində keçmişdir. Hərbi xidməti başa vurduqdan sonra sənədlərini xidmət etmək üçün Sərhəd Qoşunlarına verdi və qəbul olundu. Cəlilabad rayonunun Göytəpə sərhəd dəstəsinin N saylı hərbi hissəsində xidmətə başladı. Yaxşı xidmətə görə dəfələrlə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən, hərbi hissə komandiri tərəfindən medallara, fəxri fərmanlara layiq görülüb.

Hərbi döyüş hazırlığında, idman hazırlığında fərqləndiyinə görə Azəri Mərdəkanda yerləşən Sərhəd Qoşunlarına məxsus xüsusi təyinatlı çevik dəstəsinə göndərmişdilər. Orada keçirilən döyüş təlimlərində Azər öz fiziki, taktiki və silahlardan istifadə texnikasına görə yoldaşlarından fərqlənmişdi.

Tovuz döyüşləri zamanı xüsusi təyinatlı dəstədə kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir. Dəfələrlə kəşfiyyatçı kimi Ermənistan ərazisinə keçmişdi. Vətən müharibəsində onun da iştirak etdiyi kəşfiyyatçı dəstəsi öndə getmişdir. Azər Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut və digər ərazilərin işğaldan azad olunmasında öndə getmişdir. Televizorda göstərilən bir epizodda biz də görmüşdük, Zəngilanın alınması haqqında binanın qarşısında Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarına məruzə edib. Həmin binaya bayrağı Azər sancmışdır. Ondan başqa Araz boyu Xudafərin körpüsünün alınmasında Azərgilin xüsusi kəşfiyyat dəstəsinin xüsusi rolu olmuşdur, Xudafərin körpüsünə də Azərbaycan bayrağını Azər və onun dəstəsi sancmışdır.

Ümumiyyətlə, Azər, döyüş yoldaşlarının dediyinə görə, işğaldan azad edilmiş torpaqlarda 26 bayraq sancmışdır. Onun döyüş fəaliyyəti, döyüşdə göstərdiyi şücaət, qəhrəmanlıq barədə döyüş yoldaşları bizə danışıblar, saymaqla qurtarmaz. Azər həmişə döyüşdə ermənilər məhv edəndə deyirmiş: "Bu da Xocalının hayfı".

Son döyüşdə - oktyabrın 20-də Zəngilan erməni işğalından azad edilir, həmin gün Azərgilin dəstəsi xüsusi bir binada dincəlirmiş. Oktyabrın 21-də ermənilər böyük bir dəstə ilə onların üzərinə hücuma keçirlər. Bu döyüş Azərin son döyüşü olur. Bu döyüşdə Azər qəhrəmancasına şəhid olur. Azərlə bərabər döyüş yoldaşları - Mirağa, kapitan Aşur Cəbiyev, Məmmədəli Ələkbərov da şəhid olurlar.

Həmin döyüşdə oğlumun silahdaşları, Sərhəd Qoşunlarının yüksək rütbəli zabitləri Babək Ələkbərov, Vüsal Sultanov, Anar Məmmədov, Samir Məmmədov da iştirak ediblər. Onlar da "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüblər.

Azərin qorxmazlığı, şücaəti, həmişə öndə getməyi, vətənpərvərliyi haqqında yoldaşları çox epizodlar danışıblar. Azərin həmişə ön cəbhədə, düşmən qarşısında dimdik dayanaraq döyüşdüyündən, ölümdən qorxmadığından fəxrlə danışırlar.

Sağ olsun Ali Baş Komandanımız, hörmətli Prezidentimiz İlham Əliyev cənabları,

Azərin Vətən qarşısında, Qarabağın alınmasında, torpaqlarmızın otuzillik işğaldan azad edilməsində göstərdiyi qəhrəmanlığı "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə dəyərləndirmişdir.

Martın 28-i Azərin ad günü idi. Ad günündə döyüş yoldaşları, Mərdəkandakı Xüsusi təyinatlı dəstənin rəisinin göstərişi ilə polkovnik Babək Ələkbərov, Vüsal Sultanov və başqa yoldaşları 300-ə yaxın heyətlə Azərin məzarı önündə anım mərasimi keçirdilər. Azər haqqında öz xatirələrini söylədilər. Azər hər vaxt de-

yirdi ki, Allahın köməkliyi ilə, ölsək də, şəhid olsaq da torpaqlarımızı işğaldan azad edəcəyik, qələbə bizimdir, zəfər bizimdir.

* * *

Atanın səsində kədər hiss olunsa da, oğlu ilə iftixar etdiyini anlayıram. Fikirləşirəm ki, bu nəslin kişiləri mərd olublar, şübhəsiz. Nazim müəllimə nəsilləri barədə sual verirəm, özü barədə danışmasını xahiş edirəm. Üzündə utancaq bir ifadə dolaşır. "Mən nə etmişəm ki, sadə müəlliməm". "Xalq üçün qəhrəman yetişdirmiş atanı hamı tanımalıdır", deyirəm və sualları ipə düzürəm. Şəhid atası babasından başlayır:

-Babam Kərəm Yusif oğlu Süleymanov Böyük Vətən müharibəsi başlayan gündən – 1941-ci ildə cəbhəyə gedib. Mozdokda başlayan döyüş yolu Berlində bitib. 1945-ci ildə orden və medallarla doğma yurduna qayıdıb. 1981-ci ildə vəfat edib.

Mən 1961-ci ildə Böyük Kəsikdə anadan olmuşam. Burada Böyük Kəsik tam orta məktəbini bitirimişəm. Azərbaycan İdman Akademiyasını bitirmişəm, 1984-cü ildə təyinatla Gəncə şəhərinə göndərilmişəm, Gəncə şəhərində müəllim-məşqçi işləmişəm. 2007-ci ilə kimi müəllimliyimi davam etdirmişəm. İşlədiyim dövr ərzində yaxşı şagirdlər yetişdirmişəm. 1990-cı illərdə şagirdlərimin çoxunu Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəbə qəbul olunmaq üçün hazirlamışam. Onların arasında çoxlu zabitlər var. Hörmətli Pre-

zidentimiz İlham Əliyevin köməkçisi Hikmət Hacıyev də 24 saylı orta məktəbdə mənim şagirdim olub, yeddi il ona dərs demişəm. İdman və hərb haqqında məktəbdə də, evdə də çox təbliğat aparmışam, çox söhbətlərim olub. Azərdə də hərbə böyük maraq vardı, zabit olmaq idi arzusu. Qəbul imtahanında balı çatmamışdı. Sonra əsgərliyə getdi, qayıdandan sonra da hərbə olan həvəsi azalmamışdı, ona görə də Sərhəd Qoşunlarında xidmət etmək üçün müraciət etdi.

Şəkildə sağdan: Azərin atası və əmisi Fazil Yusifov

Azərin dayısı da hərbçidir. Əmisi - qardaşım Fazil Yusifov da döyüşüb. O, 1990-cı ildə sovet ordusuna çağırılmışdı. 1992-ci ilin yaz aylarında sovet ordusunda hərbi xidmətini yarımçıq qoyub Vətənə qayıdaraq, Qazax özünü müdafiə bataloynuna könüllü qoşulub. Ağstafa rayonunun Köhnə Qışlaq kəndindən üzü Kötan dağı və Qələmçə yüksəkliyinə qədər döyüşüb. Ballı Qaya yüksəkliyində, Qazax rayonun Ağ Köynək yüksəkliyində vuruşub. 1995-ci ildə hələ də qarşıdurmalar davam edirdi, mənfur düşmən atəşkəsi pozur, dinc əhaliyə güllə atırdı. Koxa Nəbi, Maral dağı, Muncuxlu kəndi, Əsirlik boyu ermənilərlə döyüşub. Maral dağında dəstəsilə birgə yüksəkliyin ələ keçirilməsində, erməni diversiyasının qarşısının alınmasında iştirak edib.1996-cı il avqustun 26-da evinə qayıdıb.

Ata danışdıqca döyüş səhnələri gözlərimin önündən film kimi keçib gedir, uzaq illərə, yaxın keçmişə baş vururam. Lap yaxınlardakı o şərəfli, fəxarətli, kədərqarışıq müqəddəs günlərə qayıdıram...

Z Ə F Ə R N A M Ə

Bu, bir ölməz qəhrəmanlıq
və ölməz sevgi dastanıdır...

Proloq

Bilmirəm, hardan başlayım,
Hardan yazım bir şeiri?
Göyüm-göyüm göynəyir,
Ürəyimin hər yeri.

Çiynimizdə nə qədər
Tabut gedir, ay Allah.
Müharibə olmasın:
La ilahə illəllah.

Sənsən gümanım mənim,
Rəbbim, kömək ol bizə.
Qan gölü yaranmasın,
Lalələr çıxsın dizə.

Xoş gördük, Azər balam,
Yurdun mübarək olsun.
Sənə yazdığım şeir,
Qəbrinə çələng olsun!

* * *

Doğma Ağstafam, gözəl el – obam,
Yenə ürəyinə dağlar çəkildi.
Yenə bir ananın ürəyi yandı,
Yenə bir atanın beli büküldü.

Sil gözün yaşını, başına dönüm,
De, azmı görübsən olacaqları?
Torpağa verdiyin şəhidlərinlə
Hər gün fəth edirsən ucalıqları...

Sazına, sözünə qurbanam sənin,
Keçmişin sazında, sözündə yatır.
Səhərin nə gözəl açılır sənin,
Ruhların səhərin gözündə yatır.

Saysam, şəhidlərin heç saya gəlməz,
Hamsı bir adlı: Vətəndi, Vətən.
Ağacın, çiçəyin çoxalıb sənin,
Şəhid ruhlarıdır torpaqdan bitən.

Qızarır gözlərim söküldükcə dan,
Bu gecə uyuyub heç yatmamışam.
Sərhəddə əsgəri güllə oyadır,
Mən heç öz balamı oyatmamışam.

Azərin gözünə yuxu getmir heç,
Baxışı sərhəddə uzanıb gedir.
Diqqətlə oxusan, baxıb görərsən,
Göylərə bir məktub yazılıb gedir.

Azər o məktubda nə yazıb görən,
Buludlar oxusun, göylər oxusun.
Göylərin sökülən yerləri varsa,
Alıb o məktubu ora toxusun.

Bəlkə yuxulardı, məktublar deyil,
Beləcə uçuşur sərhəd boyunca.
Ana yuxuları elə göydəcə,
Dönür ağ yorğana, dönür balınca.

Azər dan üzünü sevir ürəkdən,
Dan üzü bənzəyir qızaran gözə.
Vətənin gülüylə, çiçəkləriylə,
Azər dilə gəlir, başlayır sözə.

Azər yaxşı bilir sərhəd dərdini,
Düşmən həmləsiylə yarılıb sərhəd.
Əsgərlər gözünü yumub açanda,
Bəlkə də, beş yerdən qırılıb sərhəd.

Gözünü heç zaman yummayır Azər,
Sərhədi gözündə o düz saxlayır.
Amma boylananda Təbriz tərəfə
Bir gözü gülürsə, biri ağlayır...

Sərhəd qoşununun gizir övladı,
Ayaqdan diridi, gözdən itidi.
Onun gözü boyda gördüyü dünya,
Doğma Vətəninə məhəbbətidi.

Qarşıda Zəngilan, Cəbrayıl, Ağdam,
Sərhədlər hər yerdə dağım – dağımdı.
Sərhədi uçubsa, xəstədir demək,
Sərhədi bötövsə, sağlamlığıdı.

Üç rəngli bayrağı tutub əlində,
Qarşıda düşmən var, dağ var, dərə var.
Zəngilan torpağı görür bayrağı,
Göylərə yüksəlir haylar, haraylar.

Sevinir Zəngilan, sevinir Azər,
Qovuşur bir anda vüsal-vüsala.
Bayrağı görən tək, bir an içində,
Torpaq büləndolur yaşıla, ala.

Asır Zəngilanın başının üstən
Üç rəngli o məğrur qalib bayrağı.
Bayraq asıldımı, sanki açılır
Zəngəzur elinin dili, dodağı.

Düşür hər tərəfə bayrağın nuru,
Düşmən gizlənməyə deşik axtarır.
Baş vurur göylərin dərinliyinə,
Bayrağım hər yana padşah tək baxır.

Bir xəbər yayılır Ağsatafaya,
Azərdi, bu saat bu günün sözü.
Vətən göylərdində qoşa şamdılar,
Həm Azər, həm də ki, bayrağın özü.

Yurdun hər yerində işıq saçırlar
Bir bayraq, bir Azər, bir də ki, Vətən.
İndi o bayrağın işığı altda
İlhamla yazıram öz şeirimi mən.

Dildə əzbər oldu Azərin adı,
Qəzetə, ekrana, ağıza düşdü.
Şeirimin bir ucu tutdu göyləri,
Bir ucu əyilib kağıza düşdü.

Vətənin o başı, bu başı yoxdur,
O başda Azərdir, bu başda Azər.
Bir vaxt gözümüzlə görərdük onu,
İndi də ağılda, yaddaşda gəzər.

İndi şeirdədir, nəğmələrdədir,
Yaşayır Arazın ləpələrində.
Sən onu axtarsan, tapa bilərsən
Bütün Azərbaycan sərhədlərində.

Mahmudlu, Soltanlı, Veysəlliyə get,
Durur bu kəndlərdə ayaq izləri.
Onun addımları bitən yerlərdə
Açılır torpağın bağlı gözləri.

Odur Xudafərin, azaddı, azad,
Körpü sevincini kim duya bilər?
Bir dəfə üstündən adlayıb keçən
Azəri kitab tək oxuya bilər.

Cəbrayıl Azərin dilində indi,
Ən gözəl nəğmədi, ən gözəl şeir.
Qədim Cəbrayılın açan gülləri
İndi Ağstafaya "çox sağ ol", deyir.

***

Günlərin bir günündə
Cəbhəyə getdi Azər.
Anasının dilində
Layla tək bitdi Azər.

Ağstafa elləri
"Uğur olsun", dedilər.
Hər tərəfdə qan-qada.
Pozulubdu sərhədlər.

Ayrılıb Songülündən
Getdi döyüşə Azər.
Bilirdi ki, sərhəddən
Çıxıb gəlir güllələr.

Sinəsi dağlı idi
Azərin Vətən sarı.
Gözləyirdi yolunu
Soltanlı, Əmirvarlı.

O getdi canı ilə
Sərhədi bağlamağa.
Vətəndə körpələri
Getdi sağ saxlamağa.

Mahmudlu və Göyərçin
Kəndlərini görəndə,
Güllələr ac qurd kimi
Ulayanda, hürəndə...

Heç zaman titrəmədi
Avtomatı əlində.
Yerdən bir çiçək dərdi
Son dəfə Songülünə.

Necə xöşbəxt olurmuş
Azad vətən övladı.
Müharibədə əsgərin
Döyüşdü istedadı.

Xudafərin körpüsün
Bir an görüncə Azər,
Yadına düşdü Təbriz,
Yadına düşdü Xəzər.

Qanadlandı xəyalı,
Uçdu Göyçəyə sarı.
Sərhədçi gözləriylə
Doğradı buludları.

Şuşa gəldi yaxına,
Gözü doldu Azərin.
Gözü olmaq istədi
Açılan səhərlərin.

İstədi ki, söz kimi
Gəzsın dildə, dodaqda.
Həm Bakıda, Şəkidə,
Həm Qubada, Qazaxda.

Vətən sərhədlərində
Onun göz işığı var.
Əsgərlərin içində
Gözəl bu duruşu var.

Böyük Kəsik kəndində
Onu Songülü gözlər.
Bağçalar da, bağlar da
Dərər bir gülü, gözlər.

Çiyni gizir rütbəli
Vətən düyğulu Azər.
Vətən sevgili igid,
Vətən qayğılı Azər.

Dövlət Sərhəd Xidməti
Onun göz işığıydı.
Sərhəd müəllimiydi,
Sərhəd yaraşığıydı.

Zəngilan şəhərinə
Bayraq sancdığı zaman.
Ona çox sağ ol dedi
El-oba, Azərbaycan.

Sözünü rəhbər tutdu
Ali Baş Komandanın.
Pərvanəsi oldu o,
Anam Azərbaycanın.

Songülü zənglərində
Hər vaxt ona "can" dedi.
Azər Songülünə də
"Azərbaycan can", dedi.

"Bu saat hamı, hər kəs
Azərbaycandı mənə.
Anam da Azərbaycan,
Atam da Azərbaycan,

Sevgilim, çiçəyim də,
Böyük Kəsik elim də
Azərbaycandı, candı,
Canım ona qurbandı.”

İyirmi altı yaşında
Ömrünü vurdu başa.
Başa vurdumu? Əsla,
Yazdı torpağa, daşa.

Nə qədər ki, Cəbrayıl
Yaşayacaq dünyada,
Nə qədər ki, Zəngilan

Yaşayacaq dünyada,
Nə qədər ki, Füzuli
Yaşayacaq dünyada,
Nə qədər Azərbaycan

Yaşayacaq dünyada,
Azər də öz ömrünü ,
Qoşacaq bu həyata.

Nə qədər sərhədlər var,
Azər sərhəd olacaq.
Ölümə, qan - qadaya
Azər bir sədd olacaq.

Otuz il - həsrət bitdi,
İt tək qovuldu yağı.
Zəngilən torpağına
Azər sancdı bayrağı.

Düz səhər saat dörddə
Sancıldı doğma bayraq.
Şuşa da qanadlandı
Zəngilana baxaraq.

Cəbrayılın Göyərçin
Kəndində qanad açdı,
Azərin düyğuları
Uçdu Laçına sarı,
Uçdu Ağdama sarı.

***

Doxsan dörddə doğuldu
Böyük Kəsikdə Azər,
Onda da müharibəydi-
Düşmən tapdağındaydı
Həm Füzulu, Qubadlı,
Həm Zəngilan, Kəlbəcər.

Şəhid onda da vardı,
Onda Azər körpəydi.
Şəhid qəbirləri də
Azər üçün təpəydi.

Nə bilirdi böyüyüb,
O da şəhid olacaq.
Onun da gül məzarı
Torpaqdan ucalacaq.

Ata - Nazim müəllim
Hərdən deyirdi ona
"Sənin yaşına qalmaz,
Müharibə yetər sona."

Evdə Yeganə müəllim
Azərə dərs deyirdi,
"Uzaqdan çək gözünü,
Kitaba bax", deyirdi.

O bilmirdi, övladı
Niyə baxır uzağa?
Sərhədçi olacaqmış,
Baxır təpəyə, dağa.

O gün hansı günüydü,
Susdu ürəyi, susdu.
Xudafərin titrədi,
Düşmən sərhədi pusdu.

Songülə çatdı xəbər,
Saçın küləyə verdi.
Axan göz yaşlarını
Verdi ürəyə, verdi.

Barmağında üzüyün
Sərhədləri titrədi.
Tutdu əliylə, tutdu,
Heç nə kömək etmədi.

Necə çətin olurmuş
Nişan üzük ağrısı,
Üzük də ağappaqdı,
Çəkilibdi sarısı...

***

Azərin arzuları
Keçdi həyata, dostlar.
Azərbaycan ordusu
Yetişdi dada, dostlar.

Şuşa azad olundu,
Könüllər şad olundu.
Şəhidlər yad olundu,
Bitdi qan-qada, dostlar.

Qələbə düzün oldu.
Sərhədlər gözüm oldu.
Qarabağ bizim oldu,
Qalmadı yada, dostlar.

***

Ali Baş Komandan, o ali rəhbər,
Ölkəmin ən böyük şöhrət - şanıdı.
Fərman imzaladı, fərmanda Azər
Vətən Müharibəsi Qəhrəmanıdı.

Azərin şöhrəti gəzdi hər yanı,
O mənfur düşmənin bağrını dəldi.
Sağ olsun Prezident, onun dalınca
"Vətənin uğrunda" medalı gəldi.

Cəbrayılın azad olunmasında
Xidmətinə görə medal da aldı.
Azər qəhrəman tək düşdü tarixə,
Alçaqlıq düşmənin özünə qaldı.

SONGÜLÜN SON ŞEİRİ

Sən qoruyan sərhədi
Gözüm üstə düzərəm.
Aldığın torpaqlarda
Lap arxayın gəzərəm.

Azər, ölüncə gözlərəm,
Bir gün gələrsən deyə.
Şəklinə yalvararam,
Bəlkə dinərsən deyə.

Zəngilana gedərəm,
Səni güldən soraram.
Zəngilan torpağında
Ayağımı yoraram.

Gedərəm, dayanmaram
Səni tapınca, Azər.
Sən yatan torpaqdaca,
Mən də yataram, Azər.

Epiloq

Ey Vətən şəhidi, ey Azər balam.
Məzarın gah göylə, yerlə yarışır.
Yazıram, doymuram şücaətindən,
Görürəm adına dastan yaraşır.

Elə düyğular var, yandırır məni,
Hayandan başlayım, hələ bilmirəm?
Üç aydı gəlmişəm Ağstafaya,
Qayıdıb özümə gələ bilmirəm.

Songülə baxanda necə qayıdım,
Sən gərək özündən çıxıb gedəsən.
Laçının dəhlizin bağlamaq üçün
Bir dəfə qəbrinə baxıb gedəsən.

Sən torpaqda yatan var gücümüzsən,
Daima keşikdə dayanacaqsan.
Nə vaxtsa düşmənin səsin eşitsən,
Qoca palıd kimi oyanacaqsan.

Sənlə böyüdü, ucaldı Vətən,
Sizlər yaratdınız zəfərnaməni.
Odur Azərbaycan gedir irəli,
Birinci sırada görürəm səni.

Zəfər dastanını yazdı ordumuz,
Ali Baş Komandan oldu müzəffər.
Qırx dörd gün Vətənin baş kitabına
Siz zəfər yazdınız, mən yazdım əsər.

Qələbə müjdəsi çatdı hər yerə,
Ölkələr, qitələr yayır naməni.
Ötər aylar, illər, əsrlər keçər,
Tarix heç unutmaz Zəfərnaməni.

* * *

Tarix heç vaxt unutmaz torpaqları qanları ilə yoğurub Vətən edən qəhrəman şəhidlərimizi. Bəylik dəstləri boğçalarda, nişan üzükləri xonçalarda, arzuları ürəklərdə qalanların yaraları doğmaların qəlbində köz bağlayacaq, zaman-zaman sızlayacaq... Atalar "təki Vətən sağ olsun", analar "oğul düşmən çəpəridir, Vətəni oğullar qorumasın, bəs kim qorusun?", deyəcəklər. Dul gəlinlər, nakam nişanlı qızlar qovuşmaq üçün axirəti gözləyəcəklər.

Azər də nişanlı idi. Şəhidimizin nişanlısı ilə Böyük Kəsik kəndinin mərkəzində inşa edilmiş bulaq abidə kompleksinin açılışında rastlaşdıq.

Şəkildə soldan: Azərin dayısı Fərman Mollayev, kitab müəllifinin həyat yoldaşı Məhəmməd Məmmədov, İlyas Ömərov(kitab müəllifinin nəvəsi) və şair Güləmail Murad.

Ailəmlə birlikdə Qurban bayramı günü Azərin ailə üzvlərinə baş çəkib, şəhidimizin qəbrini ziyarətə getdik. Azərin nişanlısı da bizimlə idi. Ziyarətdən sonra onu dinləmək, bəxtəvər günlərindən xəbərdar olmaq istədiyimi bildirdim. Xanım qızımız elə xanımyana nəzakətlə sevgi tarixçəsini nağıl etdi:

-Əzizim Güləmail ana! Başdan bilirdim ki, sevgimiz ölməyəcək. Azər cismən aramızda deyil, amma o yaşayır, sevgimiz də əbədidir, bilirəm ki, bir gün mütləq görüşəcəyik, arzu etdiyimiz kimi o bəylik paltarında, mən də ağ gəlinlikdə əl-ələ verib birlikdə əbədi yola çıxacağıq.

Şəkildə soldan: Azərin dayısı Fərman Mollayev, nişanlısı Songül xanım, şair Güləmail Murad

2009-cu ilin qış aylarında mənə qohum vasitəsilə xəbər gondərdi... Bir həftə əvvələ qədər onu tanımırdım. Müəllimim məni kitabxanaya göndərmişdi, mən dəhlizə cıxanda Azər məndən qabaqda sinfinə gedirdi. İkimiz idik dəhlizdə, o, sinfinin qapısını çox fərqli şəkildə açaraq içəri girdi. Mənə çox qəribə gəldi. Sonra anladım ki, diqqətimi çəkmək üçün belə edirmiş. Eləcə yadımda qaldı... O vaxt

mən altıncı, Azər isə doqquzuncu sinifdə oxuyurduq. Dediyinə görə, bir ilmiş məndən xoşu gəlirmiş. Yaşım az idi, həm də oxumaq niyyətim vardı, ona görə qarşılıq vermədim.

İki il Azər çox mubarizə apardi, vazkeçmədi, məktub yazdı, arxamca hər gün bizim kəndə, Ağ göl kəndinə gəldi, özünü sevdirmək üçün çox şeylər etdi və bacardı, sinaqdan kecdi... Azərin bu müddət ərzində bezmədən sevgisini sübut etmək cəhdlərinə görə səkkizinci sinifdə oxuyarkən ona razılıq verdim. Amma təbii ki, o vaxtlar özümün şəxsi telefonum olmadığına görə çox az danışırdıq. Bəzən məktub yazırdı mənə (hələ də durur məktubları). Bir il ərzində məktəbdə üç dəfə salamlaşdıq sadəcə. Sonra Azər məktəbi bitirdi, həmin il aramıza məsafələr girdi. Məktəbdə hər gün görürdük bir-birimizi. Azər məktəbi bitirəndə aramızda bir az anlaşılmazlıq oldu. Əsgərliyə getdi, həmin vaxtlar əlaqəmiz olmadı. Sonra mən onbirinci sinifdə oxuyanda rayonda hazırlıqlara gedirdim və Allahın işidi yəqin, evə qayıdanda Ağstafa dəmiryolu vağzalında Azəri gördüm, əsgər paltarinda idi, əsgərlikdən qayıdırmış. Həmin günə qədər elə hesab edirdim ki, Azəri unutmuş olaram, amma Azər qəlbimdə bir közmüş... Bir dəfə görməklə yenidən başladı sevgimiz. Ondakı həyəcanı da hiss etdim həmin an, sanki heç məsafə, zaman girməmişdi araya, hər şey ilk günkü kimi idi. Küskünlük çoxdan unudulmuşdu. Azər qatara

mindi, qapıda dayanıb hələ də baxırdı...Kaş o gözlər yenə də baxaydı...

Mən həmin gün kəndə getmirdim.

2014-cü ilin oktyabr ayı idi. Gözlədiyim zəng gəldi, qarşılaşdığımız gundən iki-üç gün keçmiş olardı. Nömrəsini tanıdım... "Hər şeyə yenidən başlayaq", dedi. Çox çətin idi ona "yox" demək bu sevginin müqabilində. Barışdıq... O gündən axirətə qədər davam edəcək sevgimiz.

Həmin gün demək olar ki, yatmadıq, səhərə qədər danışdıq, yazışdıq. İllərin həsrətini, bir-birimizdən ayrı yaşadığımız hadisələri bölüşdük. Azər mənim bütün qərarlarımda arxamda idi, baxmayaraq ki, onun üçün çox çətin olacaqdı mənim Bakıya getməyim, çox qısqanc olmasına baxmayaraq, mənim universitetdə oxumağıma etiraz etmədi. Amma qismətdən, mən Bakıya gedən il – 2014-cü ilin sentyabrında Azərin təyini Cəlilabada çıxdı və yenə aramıza həsrət girdi... Azər çox gələ bilmirdi Bakıya, birinci il cəmi bir dəfə gələ bildi. Restoranda oturduq, ilk görüş demək olardı buna. İkimiz də çox utanırdıq, hətta Azər məndən də çox. Yemək sifariş etdik, amma yeyə bilmədik. Söhbət etdik uzun-uzun. Sonra parka getdik, mənə hədiyyə almışdı, orada vermək istədi. Üzük idi, üstündə sonsuzluq işarəsi. Üzüyü verəndə soruşdu, "bu işarəni bilirsən?" Dedim, "hə, sonsuzluqdu". Sonumuzu bilirmişik kimi susduq sadəcə. Azər çox duyğusal idi, qayğıkeş, çox

diqqətcil idi. Saçımdan bir tel qoparmışdı həmin gün. O teli şəhid olandan sonra əşyalarının içindən tapdım. Kiçik qabın içində saçımı yeddi il saxlayıb. Bu çox təsirliydi mənim üçün, çox şey ifadə edir, gördüyüm filmlərdə, oxuduğum kitablarda, sevgi hekayələrində də rast gəlməmişdim beləsinə. Bəzən gecələri yatmazdıq, uzun-uzun danışardıq, gələcək planlarımızdan, xəyallarımızdan, gələcək həyatımızdan, evimizdən. Bəzən sadəcə sevgimizdən, kimin daha çox sevdiyindən, bir-birimizi niyə bu qədər çox sevdiyimizdən.... Azər həmişə deyərdi ki, bizim sevgimiz dastan olacaq, toyumuz olanda hamı bizdən danışacaq. İllərin boyat eləyə bilmədiyi sevgi.... Amma mən onda bilmirdim, bir sevgi yalnız sevənlərin biri dünyadan köçəndə dastan olarmış, elə bizim nakam sevgimiz kimi. Bir-birimizə sevgi, qayğı sonsuz idi. Nə vaxt yemək yeməsək və ya xəstələnsək, ikimiz də eyni anda eyni şeyi hiss edirdik. Həsrətimiz çox olub Azərlə, amma mən onu həmişə yanımda hiss etmişəm, çünki elə hiss etdirib. Biz illərlə eyni vaxtda yatıb, eyni vaxtda oyanmışıq ayrı olsaq da. Hər gün eyni vaxtda sağollaşıb, hər səhər ilk bir-birimizə yazardıq. Hara da getsəydik, yolboyu yazışıb danışardıq, getdiyimiz yerə çatanda həmişə bildirərdik. Azər şəhid olandan sonra ilk dəfə kəndə onsuz gedəndə avtobusda oturub telefonu əlimə aldım, sonra düşündüm niyə əlimə aldım ki? Bəli, adət etmişdim, Azərə yazmaq üçün. "Avtobusa oturdum, narahat ol-

ma" deyə... Amma anında yadıma düşdü ki, Azərə zəng çatmaz, başqa dünyadadı. O anda özümü dünyada tək-tənha hiss etdim, dünya bomboşdu. Başa düşdüm ki, illərlə yanımda olmasa da, hər anımı Azərlə yaşamışam...

2018-ci ildə Gəncədə işə duzəldim. Gəncə bizim sevimli şəhərimiz idi. Çox gözəl günlərimiz olub Azərlə, çox qiymətli... O şəhərdə nişanlanmağa qərar verdik. 20 may 2020-ci ildə Azərin ailəsi elçi gəldi bizə. Ailəm münasibətimizi bilirdi, ona görə ailəm də razılaşdi. Nəhayət, sevgimiz hər kəsə bəyan oldu. İkimiz də çox sevincli idik.

Hər şey istədiyimiz kimi gedirdi. 01.06.2020 - sözləndiyimiz gün...

Mənim üçün dəyəri çox böyükdü, verdiyimiz sözləri tutduğumuz gün, nə olur-olsun, sevgimizi qoruyub saxladığımızın sübutu olan gün.... Dörd ay nişanlı qaldıq Azərlə. Bu dörd ay o qədər xoşbəxt idik ki... Sanki öncəni hiss edirmiş kimi, doya-doya xoşbəxt olmağa çalışırdıq...

Ayağımın yerə dəydiyini hiss etmirdim, uçurdum həmin vaxtlar, elə bil sevgimiz qat-qat artmışdı...

Sevincdən qanadlanmaq ifadəsi var, bax mən o hissi yaşamışam həqiqətən....

Azər təlimdə elə bizim kənddə, Ağ göl kəndində idi, ona görə tez-tez gəzməyə gedə bilirdik.Ağ göl kəndi Ağ gölün əhatəsində yerləşir. Gözəl vaxt keçirirdik, xoşbəxt idik, dünya bizim idi, dünya gözəllikdolu idi...

Elə bilirdik bizi uzun, bəxtəvər ömür gözləyir. Ölüm-itim xəyalımıza belə gəlmirdi. Amma insan bilməzmiş alnına yazılanları, taleyinə yazılanları. İnsan quş olub göylərdə uçan zaman, qol-qanadı qırılıb yerə də çırpıla bilərmiş. Xoşbəxt insan çərxi-fələyin dönəcəyinə inanmaz. Elə bilər ki, dünya belə gəlib, belə gedəcək. Həyatımdan silib atmaq istəyirəm o günü, ondan əvvəlki ömrümü istəyirəm. Amma olan-olub artıq, geriyə yol yoxdur...

Sentyabrın 26-da səs göndərdi Azər," başqa yerə gedirik, rabitə olmayacaq, narahat olma, hər şey yaxşı olacaq, dua elə, səni çox sevirəm", deyirdi. Bilmədim hara getdiyini, sonra eşitdim ki, müharibə başlayib. Sayını bilmirəm, amma 100-dən çox zəng etmiş olaram, həmin gündən gecəm-gündüzümə qarışdı, gündüzlərim də gecə oldu. Dörd gün xəbər ala bilmədik. 30-da zəng etdi, sanki həyatıma çökən bütün qara buludlar çəkildi. "Yaxşıyam", dedi.

Müharibə günləri çox çətin idi mənim üçün, qorxu, nigaranlıq, stres ... Havalı kimiydim, günlər necə

keçirdi, tam ağlımda deyil, amma oktabrın 9-na qədər rahat danışıb, yazışırdıq. "Gələcəyəm, hər şey yaxşı olacaq", deyirdi. Bəzənsə "qismət, alnımıza nə yazilibsa, o olacaq", deyirdi. Belə deyəndə çox qorxurdum, "elə demə, sənə nəsə olsa, yaşayacağam, amma həmişə yarım qalacağam, bu, yaşamaq olmayacaq, sadəcə məcburiyyət olacaq, yaşlanmaq olacaq", deyirdim. "Bilirəm, sən dua et, qorxma, hər şey yaxşı olacaq", deyirdi.

Oktyabrın 9-da Azəri Cəbrayıl istiqamətinə göndərdilər. Çox qorxurdum, çox... Amma içimdə bir hiss məni rahatladırdı, yox, on iki ilin sonu belə ola bilməz, belə bitməz... Azər də mənə "təhlükəli heç nə yoxdu, arxadayıq, narahat olma", deyirdi... Ora gedəndən sonra gec-gec əlaqə saxlayırdı. Oktyabrın 15-də zəng etdi, "yaxşıyam", dedi, çox danışa bilmədi. Son dəfə oktyabrın 19-da mesaj yazdi, "hər şey yaxşıdı, dualarını əsirgəmə, səni çox sevirəm", dedi. Həmin günlər taqətdən düşmüşdüm artıq, qorxu hissi məhv edirdi məni. Və qorxduğum başıma gəldi...On iki ilin sonu yenə ayrılıq oldu, yenə qismətimizə həsrət düşdü, bu dəfə qiyamətəcən.

21.10.2020... Özünə, sözünə, sevgisinə doymadığımın şəhid xəbəri gəldi... 22.10.2020... Uşaqlığımı, gəncliyimi, gələcəyimi, arzularımı, xəyallarımı, canımın yarısını demərəm, hamısını, ömrümün yarısını paylaşdığım insanı torpağa tapşırdım...

* * *

Nakam sevgi hekayəsi... Nə qədər sevgi dastanları var, nakam sevgiyə nə qədər roman, hekayə, poema həsr olunub. Bəzən deyirlər, artıq əvvəlki sevgilər yoxdur, insanlar dəyişib, dünya maddiləşib, amma elə deyil. 44 günlük müharibə çox şeyi isbat etdi. Ən önəmlisi, anladıq ki, Vətən sevgisi sevgilərin ucasıdır, oğullarımız Vətən naminə gözlərini qırpmadan döyüşə atıldılar, şəhid valideynləri "Vətən sağ olsun", dedilər, Songül kimi qızlarımız şəhid sevgililərinə əbədi sevgi andı içdilər. Yox, bu xalq milli köklərini, milli dəyərlərini itirməyib, bu xalq bu gün yeni qəhrəmanlıq dastanları, yeni sevgi dastanları yazdı. Üzünüz ağ olsun, əsgər yetirən analar, üzünüz ağ olsun, dimdik dayanan əsgər ataları, üzünüz ağ olsun, əsgər xanımları, əsgərə könül verən xanım qızlarımız, siz Allahın imtahanından üzüağ çıxmısınız, siz insanlıq imtahanından ən yüksək qiymət almısınız, bu qürur, bu vüqar sizi yaşatsın və yaşadacaq. Əbədiyaşar qəhrəmanlarımızın adları çəkiləndə siz də yada düşəcəksiniz.

* * *

Songül susur, Azərin ona yazdığı məktublar danışır...



Sən mənə əlini verməyəlsənki
əlindən tutum
Mənim həyatımda səndən
başqa heç kəsə yer yoxdu
tələsimə məni uzəyindən
silməyə mən ələdi orda
olacam

Səni özümnəndə çox
sevirəm

Əgər sən məndən ayrılsan
həmin gün həyatım məhv olar belə
etmə.
Səni uzaqdan sevməyi sənə bax-
madan görməyi toxunmadan sevməyi
səni duymadan dinləməyi, gözyaşlarımı
ba gülməyi və qovuşmaq üçün səbr
etməyi hər şeyi öyrəndim, amma
Sənsiz olmağı əla .....



Ortaya çökmüş ağır sükutu pozmağa yenə də şəhid atasının gücü yetir.

-Döyüşçü yoldaşları Azəri xatırlayanda deyirlər ki, bütün döyüşlərdə o, bir ifadəni tez-tez işlədirdi: "Mən Xocalıdakı körpələrin intiqamını alıram". 26 yaşında olan bu igid işğaldan azad olunan 26 ərazidə Azərbayacan bayrağını asmışdı. Yaşadığı illərin sayı qədər Azərbaycan bayrağını ucaldıb.

Ermənilərin qondarma bayrağını açıb ayaq altına atıb, əvəzinə Azərbaycan bayrağı ucaltmışdır. Fevralın 26-sı Xocalının işğalı günü idi. 26 bayrağın asılması, Azərin 26 yaşının olması... Rəmzlər o qədər ifadəli danışır ki, bizim müharibənin tarixindən.

Çox şükür, Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı ordumuz Qarabağımızı əsarətdən qurtardı, bütün şəhidlərimizin qisasını aldı. Oğlumun silahdaşlarından çox razıyam. Sərhəd Qoşunlarının komandanı general-polkovnik Elçin Quliyev Novruz bayramından iki gün əvvəl şəxsən özü Azərin

Şəkildə soldan: Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, şəhid Azər Yusiflinin atası Nazim Yusifli və dayısı Fərman Mollayev.

məzarını ziyarət etmişdir

Azərin igidliyi, cəsarəti haqqında danışmışdır. Şəhidlərimizin xatirəsini əziz tutan hər kəsə minnətdaram.

***

Bəli, əziz oxucular, milli davamız, Vətən savaşımız, müzəffər ordumuzun dünyaya səs salan zəfəri, Ali Baş Komandamızın və məğrur xalqımızın bir yumruq kimi birləşməsi, milli birlik, düşüncə birliyimizin təntənəsi şanlı tarixə çevrildi. Bir millətin şərəfini qoruyan insanlar həmin millətin tarixini yaradanlardı. Belə insanlar qəhrəmanlıq rəmzinə çevrilirlər. Hər bir ölkədə torpaq uğrunda, azadlıq uğrunda mübarizə aparan insanlar yüksək qiymətləndirilir. Onların hər birinin döyüş yolu bir əfsanə, bir dastan, bir tarix kimi yaddaşlara həkk olunur. Azər Yusifli məhz belə qəhrəmanlardandır. Vətən uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmaqla millətin qəlbində əbədi yaşayan igid, sən ölməmisən, sən əbədiyyətə qovuşmusan.

Döyüş zamanı onunla birlikdə vuruşan yaralı kəşfiyyatçı yoldaşlarının bir neçəsini güllələbaran altından çıxarıb, arxa cəbhəyə göndərib. Sonuncu dəfə də döyüşçü yoldaşını xəstəxanaya aparıb sonra döyüşə qayıtmışdır. O həm də etibarlı silahdaş kimi cəbhə yoldaşlarının xatirində yaşayır.

* * *

Şəhid anası! Sənə nə desək, qəlbinin yarasına məlhəm olar? Gələnlərlə görüşməyib, dünyanı özünə zindan edən ana! Oğul böyütmüşdün, arzu-kamın vardı, amma oğlun Vətəni seçdi. Oğlun zirvələrin ən ucasını seçdi – şəhidliyi seçdi. Evinə gəlin gətirəcəkdin, toy-büsatla gətirə bilmədin, amma Songül çal-çağırsız sənin gəlinin olmağı qəbul etdi.

...Sadəcə ananın oturduğu evin divarlarının daşları, rəngləri, qapıları-pəncərələri pıçıldayıb, köks ötürərək deyir: "Şair, ananın qəlbində qövr edən dərdini duyub yaza bilirsənsə, yaz":

YAZ, ŞAİR, QƏLBİMDƏN KEÇƏNLƏRİ YAZ!

Balasın itirmiş bir anayam mən,
Yaz, şair, qəlbimdən keçənləri yaz!
Qalasın itirmiş bir anayam mən,
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Analar, dərdinə yanıb ağlayar,
Göyərçin tək yola qonub ağlayar!
Şəhid balasını anıb ağlayar,
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Allahım, şəhidlər qoy sənin olsun,
Analar anası Vətənin olsun.
Yaradan düşmənə qoy qənim olsun.
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Neçə toy xonçası qalıbdı bağlı,
Nişanlı qızların sinəsi dağlı,
Qazaxlı, laçınlı, həm qarabağlı,
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Gör nələr gətirdi fələk başıma,
Niyə acımadı göz yaşlarıma?
Xınalar çəkildi məzar daşına!
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Şəhidlərə Ballı qaya yaraşır,
Adları günəşə, aya yaraşır!
Vağzalı yasa yox, toya yaraşır!
Yaz, şair, qəlbimdən keçənləri yaz!

Yaşasın düşməni biçən el üçün!
Şəhadət badəsin içən el üçün!
Ölərmi canından keçən el üçün?
Yaz, şair, qəlbimdən keçənləri yaz!

... Bu həyatda ana olmaq ən çətin peşədir. Çünki özü üçün yaşamır, övlad böyüdür, cəmiyyət üçün şəxsiyyət yetişdirir. Yeganə ana xalq, cəmiyyət qarşısında vəzifəsini ləyaqətlə yerinə yetirib,

Azər kimi vətənpərvər, əqidəli, dönməz, cəsur bir övlad böyüdüb.

Azər Yusifli 2012-ci ilin aprelində hərbi xidmətə çağırılıb. O gündən hərbi seçib, o gündən Vətəni qorumağı seçib, sərhədlərimizi mühafizə etməyi seçib. Müharibə şəraitində olan ölkənin qeyrətli vətəndaşı, təbii ki, bu yolu seçməli idi. Cəsur insan, və-

tənpərvər kişi bu yolu seçməli idi. Qarabağ müharibələri göstərdi ki, peşəsindən asılı olmayaraq, düşmənlə savaşmağa hazır olan yüz minlərlə vətəndaşımız döyüşə hazır idi, könüllü ərizə verənlərin sayı-hesabı yox idi. Belə bir xalqın qarşısında düşmən duruş gətirə bilməzdi. Çox igidimiz canından keçdi, çox gəncimiz əlil oldu, amma Vətənin yarası sağaldı, millətimizin başı ucaldı. Biz milli kimliyimizi isbat etdik, biz dünyaya kim olduğumuzu göstərdik. Millətimiz hər bir döyüşçüyə minnətdardır.

Əsil Azərbaycan xanımı, gözəl ziyalı, şəhid ailələrinin qayğısına qalan, daim onların yanında olan millət vəkili Ülviyyə Ağayevanın da şəhid Azər Yusifli haqqında ürək sözləri var:

-Atalar yaxşı deyib ki, dost dar gündə tanınar. İnsanları yaxşı tanımaq, daxili aləmlərini, niyyətlərini aşkar etmək üçün çətin sınaqlardan keçmək lazımdır. 44 günlük Vətən müharibəsi, xalqımızın son iki yüz il ərzində ən şərəfli tarixi günlərində biz nələr gördük, kimləri sınaqdan keçirdik, dostu-

muzu, düşmənimizi bir daha tanıdıq, bizə dost, qonşu deyib torpaqlarımızı işğal etmiş mənfur düşmənimizə silah, sursat, ərzaq və yanacaq ötürənləri gördük, öz ikili standartlarına sadiq qalaraq imzaladıqları sənədləri belə görməzdən gələrək, məkrli niyyətlərini həyata keçirmək üçün əllərindən gələni edən güclü dövlətlərin mahiyyətini bir daha anladıq və bu vaxta kimi tanımadığımız, ancaq öz evlərimizdə böyüyən, öz analarımızdan tərbiyə alan papaq altında yatmış igid oğullarımızı da gördük. Gördük ki, Vətən sevgisi insana ana südü, qan yaddaşı ilə ötürülür. Nə olsun ki, o torpaqlarda doğulmamısan, nə olsun ki, o torpaqları itirdikdən sonra doğulmusan? Amma papaq altında yatan o oğullar ayağa qalxdı, bu vaxta kimi görmədikləri, ancaq adını eşitdikləri, ağrısını yaşadıqları, həsrətini çəkdikləri torpaqları geri qaytardılar, qanları, canları, sağlamlıqları sayəsində. Bu oğullar üçün fərq etmədi ki, o, qarabağlıdır, şuşalıdır, zəngilanlı, ağdamlıdır, bu, Qərbi Azərbaycandan didərgin salınmış, o, bakılı, gəncəlidir. Bu oğulların bir sözü oldu – Vətənim Azərbaycandır, Vətən torpağını azad etmək üçün qan tökməyə, qurban getməyə dəyər. Bu, ən böyük şərəfdir. Baş ucalığıdır.

Belə oğullarımızdan biri də Vətən müharibəsinin şəhidi, Vətən Müharibəsi Qəhrəmanı, Dövlət Sərhəd Xidmətinin, Sərhəd Qoşunlarının baş giziri Azər Nazim oğlu Yusiflidir. Cəmi 26 il ömür sürdü qəhrə-

manımız. Maraqlıdlır ki, bu oğulların çoxunun ömrü torpaqlarımızın işğal altında qaldığı illərdən az oldu. Onlar Azərbaycanın torpaqları işğal altında olduğu illərdə doğulanlar nəslidir. Azər də onlardan biridir. İndi başa düşürük ki, bu uşaqların qəlbində nə qədər böyük məhəbbət, nə qədər torpaq sevgisi yer almışdır, qorxuya isə zərrə qədər yer olmamışdır. Vətən sevgisi Azərə hərbi xidmətini başa vurduqdan sonra da geri qayıtmağa qoymamışdır, o, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Müharibə başlayanda Azər Yusifli əvvəlcə Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə Cəbrayıl rayonunun geniş bir hissəsi işğaldan azad edildikdən sonra Zəngilanın azadlığı uğrunda gedən döyüşlərə qatılmışdır. Oktyabrın 19-dan 20-ə keçən gecə Zəngilan şəhəri uğrunda döyüşlər nəticəsində şəhər işğaldan azad olunduqda 27 ildən sonra Zəngilan şəhərinə Azərbaycan bayrağını da Azər Yusifli sancmışdır. Sanki bu igid məhz bu missiyanı yerinə yetirmək üçün dünyaya gəlibmiş. Bu qələbə sevincini o, cəmi bircə gün yaşaya bildi, oktyabrın 21-də Zəngilan şəhəri istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı göstərdiyi qəhrəmanlıqlarına görə, hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan

Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən, Azər Yusifli "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Bəli, bir reallıq da bizim üçün əbədidir: Şəhidlər ölməz, Vətən bölünməz. Azər şəhid olub, o, ölməyib, o, bizim aramızdadır, bizim qəlbimizdədir. Hələ neçə-neçə yeni doğulmuş oğullarına gənc analar şəhid olmuş igidlərimizin adını qoyacaq, neçə-neçə Azərlər, Rafiqlər,Mübarizlər, Xudayarlar gələcək bu dünyaya, birinin yerinə Vətənimizdə minlərlə oğul doğulacaq, bu igidlərin bizə qaytardıqları torpaqları, bərpa etdikləri qürurumuzu qoruyacaqlar, şəhid olmuş oğullarımızın yeri isə qəlbimizdə əbədi qalacaq.

Kövrək bir səslə "heç unudulmayacaq mənim əziz qardaşım" deyə, Azərin qardaşı Xəzər düşüncələr içində söhbətə qoşulur:

-Mən uşaqlığımdan, özümü biləndən atamın Qarabağ ağrısını hiss etmişəm. Biz o bölgədən olmasaq da, atam o bölgəyə sevgini bizə aşılayıb, yaralı torpaqlarımızın ağrısı bizə yad deyildi. Düşmənimizə son-

Şəkildə soldan: Azər Yusifli və qardaşı Xəzər Yusifli-bunu

suz nifrətimiz vardı, mənfur ermənilər torpaqlarımızı zəbt etmiş, insanlarımızı qətlə yetirmiş, sağ qalanları yurd-yuvalarından didərgin salmışdılar. Biz ailədə bu ruhda böyümüşdük. Həm də biz inanırdıq ki, bir gün gələcək torpaqlarımızı azad edəcəyik, atam deyirdi ki, xalqımız bu haqsızlığa axıradək boyun əyməyəcək, vaxtı var, torpaqlarımızı murdarlardan təmizləyəcəyik, Azərbaycan bütöv olacaq. Bu gün atamın o müqəddəs arzusu çin oldu. İgid oğullar bir yumruq kimi birləşdi, Xudafərini azad etdi, Qarabağa, Təbrizə yol açdılar. Xudafərinin azad edilməsində rəşadət göstərən, Xudafərinə bayrağı sancan da qardaşım Azər oldu.

Müharibənin ilk həftəsi Azər yaralanır və hospitalda müalicə almalı olur. Həkimlər deyirlərmiş ki, biz onu saxlaya bilmirdik. Gecəni səhərə qədər növbə çəkirdik ki, o döyüş meydanına qaçmasın. Azər səhəri açan kimi özü yarasını sarıyıb geri qayıtmışdı. Bu sadəcə hünər işi deyil, bunun üçün həm də Vətəni sevən ürək lazımdı. Bu gün bütün dünya mətbuatı Qarabağda tarix yazan oğulların qəhrəmanlığından danışır. Şəhidi çiynində, yaralısı çiynində, qan-tər içində döyüşə-döyüşə irəliləyirdi Azərbaycan Ordusu. Bəşər tarixi nə belə bir savaş, nə də belə bir şanlı zəfərin şahidi olmuşdu.

Şəkildə sağdan:Azərin əmsi qızı Dilrubə, nişanlısı Songül və anasıYeganə xanım

-Elədir, elədir, - deyərək Azərin əmisi qızı sözə başladı. - Xəyallar, xatirələr içində boğuluram...

Azər mənim üçün bir başqa qardaş idi, həmişə mənimlə şən zarafat edərdi. Heç gözümün önündən getmir. Uşaqlıqdan bir yerdə böyüdük, biz Azərgilə, Azərgil bizə tez-tez gələrdilər. Birgə oynayardıq, əylənərdik. Beləcə böyüdük, boya-başa çatdiq. Əmioğlu kimi yox, bir qardaş kimi hər zaman arxaydı. Azərin toyuna elə səbirsizliklə hazirlaşırdım kı... Onu edəcəyəm, bunu edəcəyəm, deyirdim. Hamsı ürəyimdə qaldı, o acı xəbəri eşidən dəqiqədən dünya gözümdə qaraldı. Azər mənim üçün bir başqa qardaşıydı – mehriban, gülərüz, böyük-kiçik yeri bilən. Onun çox arzuları, xəyalları var idi. Həm özünün, həm bizim muradmız gözümüzdə qaldi. Azər qardaşmın itkisi mənə çox ağır təsir edir, özümə gələ bilmirəm. Hələ də yoxluğuna inanmıram, bəlkə nə vaxtsa gələr deyə, gəlməyəcəyini bilə-bilə yenə gözləyirik.

YAXŞI İGİD DAYISINA ÇƏKƏR

Azər Fərman dayısı ilə çox yaxın idi, dost da demək olardı. Həm də həmkar idilər, Fərman kişi də Dövlət Sərhəd Xidmətində xidmət edir. Sözləri-sirləri bir olub. Fərman Mollayev istəkli bacıoğlusu barədə yana-yana danışırdı:

-Həyatımda ən böyuk zərbəni Azərin şəhid xəbərilə aldım. Yer ayağımın altından qaçdı. O gün nələr çəkdiyimi sözlə ifadə etmək mümkün deyil. Azərin anasına – bacıma bu ağır xəbəri necə deyəcəkdim? Bu da ayrı bir dərd idi. Azər mənimlə daha çox əlaqə saxladığı üçün anası onu tez-tez məndən soruşurdu. Yenə israrla soruşurdu, bəlkə də səsimdən nəsə hiss etmişdi, ya da ürəyinə dammışdı. Özümü birtəhər ələ alıb, bacıma dedim ki, Azər yaralıdır, əməliyyat olunur, əməliyyat bitsin, özünə gəlsin, səhər səni onunla danışdıracağam.

Səhər saat 6 : 00-da bacım zəng edib nə vaxt gələcəyimi soruşdu. O bilmirdi ki, gecəni səhərə kimi onlarda olmuşam, gözünə görünməməyə çalışmışam.

Vaxtı uzatmaq üçün "bir azdan gələcəyəm", dedim. Saat 7 olardı bacımgilin həyətinə girdim, bacım mənə tərəf gəldi, özümü saxlaya bilmədim, bacımı qucaqladım: " Azər şəhid olub, bacı", dedim. Bunu necə dedim, Allah bilir.

Bir neçə saat keçmiş Azərin nişanlısı gəldi. Nələr olduğunu təsəvvür etmək çətin deyil. Azərin bayrağa bükülü tabutu gələndə elə bildim qiyamət qopdu...

Azərin tabutunu açdım, üzünü görmədən onu torpağa əmanət edə bilməzdim... Və ana torpaq onu qucağına aldı.

Bütün bunlar çox ağır yaşantılar idi, bu zərbələrə necə dözdüm, İlahi...

Muharibə başlayandan hər gün bir neçə dəfə bacımla görüşüb təskinlik verirdim ki, Azər arxadadı, cəbhədə deyil, narahat olmasın. Azərə də "birinci ana-na zəng vur", deyirdim.

Azər şəhid olmamışdan bir neçə gün əvvəl anasına demişdim ki, daha müharibə dayanıb, atəşkəsdi. Çox sevinmişdi, müəllim yoldaşları deyirdilər ki, müharibə başlanandan ilk dəfə onun üzünün güldüyünü görüblər.

Mən bacımdan ayrılıb gedəndən on dəqiqə sonra Azər anasına zəng edib. Bacım sevincək xəbər verib ki, dayın deyir, müharibə qurtarıb. Azər anası ilə danışandan sonra mənə zəng vurdu, gülərək dedi: "Nə yaxşı varsan, dayı, ilk dəfə anam sevincək danışdı, ağlama-

dı;" Azərin duruşu, hərəkətləri, səsi deyir, axı şəhid anası ağlamaz, ta qədim zamanın döyüşlərindən yurd – yuvası, eli-obası, torpağı üçün, Vətəni üçün canını fəda edən oğullar üçün analar ağlamayıb, sən də ağlama, ana!

Şəhid anası ağlamaz,
Ağlama, ana, ağlama!
Göy geyib, qara bağlamaz,
Ağlama, ana, ağlama!

Azad oldu torpağımız,
Dalğalanır bayrağımız!
Xoş gəlibdi növrağımız,
Ağlama, ana, ağlama!

Özünə çox vermə zülüm,
Bax gör azad olub elim!
Haqqın əlindədir əlim,
Ağlama, ana, ağlama!

Çox yalvardım Azərə ki, özünü qorusun, özü də cavandı, anası da yazıqdı, ona bir şey olsa, anası dözməz. Deyirdi: "Sən varsan anamın yanında, mən rahatam, şəhid olsam da, sənin kimi dayım var, anama təsəlli verəcəksən".

Qohumcanlılıqda, diribaşlıqda, zirəklikdə hamı onu mənə oxşadırdı. Çox istəyirdim onu, çox əzizdi mənə. Dözmək olmur, ağır dərddir. Bir arzum var ki, Allah mənə də şəhidlik qismət etsin ki, Azərlə o dünyada görüşə bilim. O cənnətdədir, ona qovuşmaq üçün mən də şəhid olmalıyam. Çox tələsirəm, onun yanında olmaq istəyirəm...

Azərin məndə cox sirləri var, mümkun olan on faizi demişəm, doxsan faizi mənimlə məzara gedəcək.

XATİRƏLƏR İŞIĞINDA

İşıqlı xatirələrin içinə düşmək nə gözəldi, nurlu xatirələrdə boy göstərmək nə gözəldi, nə gözəldi səndən danışanlar gülümsəsinlər, kövrəlsinlər, səndən danışmaqdan doymasınlar... Cəbhə dostluğu başqa dostluqlara bənzəməz, döyüş yoldaşlığı oddan-alovdan keçər, silahdaşlar silaha da, dosta da sadiq olar. Azərin döyüş yoldaşlarının ürəkləri doludur. Azəri əsil kişilik meydanında, əsil imtahan başında onlar görüblər, Azərin kim olduğunu əsil onlar bilirlər. Onları dinləyək...

Azərin döyüş yoldaşı Vüqar Zamanov olanları danışır:

-Mən Cəbrayılda yaralandım. Tibb məntəqəsi döyüş meydanından xeyli aralıda idi. Azər bir əlində silah döyüşə-döyüşə məni çiyninə alıb neçə kilometrlikdə olan tibbi məntəqəyə çatdırdı. Mən hospitalda ayılanda bildim ki, rəşadətli ordumuz Zəngilanı azad edib və Zəngilana da ilk dəfə şanlı bayrağımızı Azər sancıb. Zəngilan azad edildikdən sonra Azər bir mək-

təb binasına daxil olur. Hayların bayrağını və " qəhrəmanlarının" şəklini divardan söküb ayaqlarının altına atır. Daha sonra zaman-zaman türkün torpağını, tarixini və coğrafiyasını mənimsəyən oğru millətin tarixi abidələrinin sərgiləndiyi bir divar kağızına doğru gedir. Hayların röyalarında, miflərində yaratdıqları Ermənistan xəritəsini, tarixi abidələrinin şəklini divardan söküb ayaqlayıb əzdikcə "bu da şərəfsizlərin məktəbidi", deyir.

Azərin döyüş yoldaşı Xəyal Namazov:

-Biz Füzulini azad etmişdik və böyük ruh yüksəkliyi ilə irəliləyirdik. Həmin gün eşitdik ki, Gəncədə terror aktı törədilib. Təsəvvür edin siz Bakıda, Lənkəranda, Şəkidə oturub bu hadisəni eşidəndə nə cür sarsıntı keçirirsiniz? Ermənin beş metrliyində üz-üzə belə bir dəhşəti eşidirik və birdən Azər dəli bir nərə çəkir. "Kişidilərsə, gəlib döyüş meydanında qarşımızda dayansınlar. Kişidilərsə döyüş meydanında duruş gətirsinlər." Döyüş meydanından tülkü kimi qaçanlar, döyüş meydanında hərbi texnikasını, hərbi sursatını, səngərini qoyub qaçanlar gecə tülkü kimi pusquda dayanıb yatmış şəhəri bombalayırdılar.

Son döyüşdə ermənilərlə qeyri-bərabər qüvvə ilə döyüşürdülər. Bir qrup kəşfiyyat dəstəsi ermənilərin otuz yeddi əsgər və zabitini əsir götürdü, qırx iki nəfərini isə öldürdü. Azər son nəfəsinə qədər həmin döyüşdə qəhrəmanlıqla vuruşdu və şəhadətə qovuşdu.

Hər bir insan ömrü bütöv bir təcrübədir. Ömür yoluna nəzər salanda bəzən adama elə gəlir ki, milyonlarla insan bir-birinin yaşamını təkrarlıyır. Amma Azər gənc yaşında bənzərsiz bir ömür yaşadı. Və mən inanıram ki, onun ömrü bu məmləkətdə nəsil-nəsil insanlardan ötrü həmişə əvəzsiz bir nümunə olacaq. Namus, şərəf, ləyaqət, mərdlik və fədakarlıq nümunəsi.

* * *

Bu xalqın hərb meydanında dünyaya meydan oxuyan Azərlərin cəsarət, qeyrət məktəbidirsə, Songülləri əhdə vəfa örnəyi, ülviyyət rəmzi və sədaqət simvoludu. Bəli, bu Vətənin bayrağını ucaldan Azər kimi mərd, qeyrətli oğullardısa, bu xalqın başını uca edən Fərizələr, Mələklər, Songüllər var – sevgisinə, sevdiyinə son nəfəsədək sadiq qalan sədaqətli qızlar.

Azəri gənc yaşında ən çox sarsıdan, yandıran bir məqam Xocalıda günahsız körpələrin, əliyalın qocaların, hamilə qadınların, ana-bacılarımızın başına gətirilən ağlagəlməz müsibətlər idi. Azər Xocalının qisasını almağı özünə həyat qayəsi seçmişdi. Ən böyük arzusu şəhidlik zirvəsinə, şəhadət məqamına ucalmaq idi. Dediyinə əməl etdi. Əqidəsindən və yolundan dönmədi.

Məzlumların, günahsızların qisasını aldı. Şəhidlik zirvəsinə ucaldı. Sonuncu dəfə ailəsi ilə telefonla danışanda da valideynlərindən halallıq istəyən Azər ölümün bir addımlığında olduğunu bilirdi.

Nur içində uyu, Azər. Siz – şəhidlər bizim təqvimimizin qara səhifələrini ağartmısınız. İndi təqvimdə o qara haşiyələnmiş tarixlər yoxdur. Artıq bütövləşmiş Vətən və o Vətənin azad edildiyi işıqlı gün var: Zəfər günü. Siz bütövlükdə xalqımızın ruhunu, ləyaqətini, mənliyini özünə qaytardınız. Siz sadəcə bu torpağı azad etmədiniz, millətimizin üstündən möhnət yükünü, əsarət damğasını, ləkəsini götürdünüz. Tanrı qatında yeriniz uca, şəhadətiniz qutlu olsun.

Şəhidin atası oğlunun qəhrəman silahdaşlarından qürurla söhbət açır:

-Dayanmadan, fasiləsiz, istirahətsiz vuruşublar, əməliyyata gecə vaxtı gedirdilər. Zəngilanı da onlar alıblar, Cəbrayılı da. Yəni müharibə başlayandan ən çətin yerlərdə döyüşüblər. Müharibədə iştirak edən əsgər və zabitlərimizin hamısı ürəklə döyüşüb, hamı qələbə uğrunda vuruşub, heç kim canını fikirləşməyib, bir məqsəd olub: torpaqlarımızı düşməndən təmizləmək. Mən təkcə oğlumla deyil, Qarabağ uğrunda döyüşmüş bütün igidlərimizlə fəxr edirəm.

Şəhid atası danışdıqca polkovnik Vüsal Sultanovun sözləri keçir ürəyimdən: "Cəsur, mərd, qorxmaz, torpaq uğrunda can qoymuş şəhidlərmizin sayəsində indi Zəfər bayrağımız yüksəklərdə dalğalanır".

ÖLMƏZLİK

Azərbaycan sərhədçisinin ən müqəddəs arzusu ölkəmizin ərazi bütövlüyünü və işğaldan azad edilmiş ərazilərdə dövlət sərhədlərinin mühafizəsini təmin etməkdir. Ermənistanla dövlət sərhədi boyu düşmənə göz dağı olan Azərbaycan Respublikasının möhtəşəm üçrəngli bayrağı, Zəfər bayrağımız dalğalanır. Keçdiyimiz hər gün tarixə dönür. Amma tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var ki, unudulub gedir, elə günlər də var, heç vaxt unudulmur, yaddan çıxmır. Qərinələr, əsrlər keçməsinə baxmayaraq, unudulmayan günləri unudulmaz edən qəhrəmanlarımız, tarixi şəxsiyyətlərimiz olub.

Mən dövlət sərhəd Xidmətinin Çevik Hərəkat Dəstəsinin komandiri olaraq sizlərə bu gün unudulmayan günləri unudulmaz edən qəhrəman şəhidlərmizdən biri olan şəhid baş gizir Azər Yusifli haqqında fəxr və qürur hissi ilə öz xatirələrimi bölüşürəm

2019-cu ilin Çevikçi hazırlığı kursnu müvəffəqiyyətlə başa vuran bir neçə hərbi qulluqçu nizam-intiza-

mı, savadı, səmimiyyəti, cəsurluğu və fiziki hazırlığı ilə digərlərindən fəriqlənirdi. Bu hərbi qulluqçulardan biri də şəhidimiz baş gizir Azər Yusifli idi.

Kursu bitirdikdən sonra Azər Çevik Hərəkat Dəstəsində müvafiq vəzifəyə təyin olundu. Azərin vətənpərvərliyi, Vətən uğrunda hər bir qəhrəmanlığa, hər cür mübarizəyə hazır olması, həmçinin, komandir və rəislər tərəfindən verilən əmr, göstəriş və tapşırıqları sözsüz yerinə yetirən bir hərbçi olması xidmətinin ilk günlərindən məlum olmuşdur.

27 sentyabr 2020-ci il tarixdən Vətən müharibəsinin ilk günlərindən döyüşçü yoldaşları ilə birgə döyüş tapşırıqlarında iştirak etmişdir. Azər Füzuli və Cəbrayıl rayonu ərazisində gedən aktiv döyüş əməliyyatlarına qoşularkən, qrupun idarə olunmasında, yaralı yoldaşlarının çıxarılmasında, düşmən üzərinə planlı şəkildə irəliləməkdə fərqlənmişdir.

Cəbrayıl rayonunun Mirək, Kavdar və Hacalı kəndlərinin işğaldan azad edilməsində xüsusilə rəşadət göstərmişdir. Oktyabr ayının 19-20-də Zəngilan şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə yaxından iştirak etmişdir. 21 oktyabr 2020-ci il tarixdə düşmən Zəngilanın yenidən işğal edilməsi istiqamətində əksh ücum əməliyyatları həyata keçirmişdir. Basqının qarşısının alınması zamanı baş gizir Azər Yusifli şücaəti, cəsur duruşu və hünəri ilə sinəsini sipər edərək düş-

mənin qarşısına atılmış, xeyli sayda düşməni məhv edərək qəhrəmancasına şəhid olmuşdur.

Azər Yusifli xidmət etdiyi illər ərzində göstərdiyi yüksək nailiyyətlərə görə dəfələrlə orden və medallarla təltif olunmuşdur.

9 dekabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Azər Yusifli ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

" Vətən Müharibəsi Qəhrəmanı" ordenini general-leytenat, DSX rəis müavini Elşən Verdiyev Azərin atası Nazim kişiyə təqdim etmişdir.

Vətəni və milləti yolunda öz istəyi ilə canından keçməyə hazır olan insanların fəth etdiyi ən yüksək, şərəfli zirvəni - şəhidlik zirvəsini qazanan baş gizir Azər Yusifli xalqın yaddaşında, Azərbaycanın tarixində əbədi yaşayacaq.

Canlarından keçməklə xalqın azadlığını canı ilə qazanıb, qanı ilə yazanlardır şəhidlər. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik millətin ucalığıdır. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Onlar bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır.

Azərbaycan xalqı yenilməz, mübariz xalq olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanətilə də təsdiqləyir. Biz hər birimiz bu cür oğullar böyütmüş anaların qarşısında baş əyirik !

Vüsal Sultanov
Vətən Müharibəsi Qəhrəmanı
Polkovnik

İLANBOĞAN

Qorxmaz, mərd, cəsarətli oğul Azər Yusifliyə 2 il hərbi hazırlıq fənnindən dərs demişəm. Bundan əlavə o, daha kiçik yaşında, yəni 8-9-cu siniflərdə bütün hərbi idman oyunlarında iştirak etmişdir. Azər 10-11-ci siniflərdə hərbi hazırlıq dərslərində xüsusi fərqlənmiş, çox fəal olmuşdur. Nəinki nəzəri dərslərdə, eləcə də praktiki dərslərdə yüksək göstəricilər nünayiş etdirmişdir. Yəni məktəbin sərhədçi komandası Azərbaycan üzrə yarışlarda əvvəlcə rayon birinciliyində 1-ci yeri tutmuş, onun oxuduğu dövrdə Şəmkir dəstəsi üzrə yenə 1-ci yeri tutmuş və respublika birinciliyində 1-ci yerə layiq görülmüşdür. Onunla bərabər beş nəfər şagird yarışda iştirak etmiş, xüsusi fərqlənmiş, bütün etaplar üzrə yüksək nəticələr göstərmişdir, əsasən də Azər balamız. Azər həm də məktəbdə oxuduğu müddətdə məndən həmişə məsləhətlər alırdı. Hərbi sahəyə onun çox böyük marağı vardı. Düzdür, o, qəbul ola bilmədi, balı çatmadı, ancaq

hərbi xidməti qurtarandan sonra ərizə verib müddətli hərbi xidmətə getdi və az müddətdə qocaqlığı sayəsində, biliyi sayəsində gizir rütbəsinə yiyələndi. Hərbi komandanlıq onun xidmətini yüksək qiymətləndirirdi, müəyyən təltiflərə layiq görmüşdü. Məktəbdə oxuduğu müddətdə mən kənardan fikir verirdim, çox intizamlı, tərbiyəli uşaq idi. Özündən böyüklərə hörmət edərdi, özündən kiçiklərə də diqqətli idi. Sakit idi, həlim idi, onun bu qədər döyüşkən, düşmənə amansız olduğunu təəsəvvür etmək çətindi. Az yaşı ilə ürəyində düşmənə sonsuz nifrəti varmış, torpaqlarımızı azad etmək niyyəti ilə bəlkə də hərbi seçmişdi. Müharibə onun bizim bilmədiyimiz yüksək keyfiyyətlərini, cəsurluğunu, qəhrəmanlığını üzə çıxardı. Özünü ifadə etmək üçün ona meydan lazım idi və o, döyüş meydanında kimliyini göstərdi. Yenə məktəb illərinə qayıdıram, hələ Azər aşağı sinifdə oxuyurdu, 7-də, ya 8-də, uşaqların qıy-qışqırığını eşitdim. Məktəbin həyəti bağçadı, bağdı, hər tərəf ağaclıqdı, uşaqların səsi o tərəfdən gəlirdi, binadan çıxıb onlara tərəf qaçdım. Gördüm uşaqların hərəsi bir tərəfə qaçır, Azər əyilib yerdən nəsə götürdü, baxdım ki, uzun bir ilandı. Azər ilanın başından tutdu, ağaca çırpıb öldürdü. Məətəl qalmışdım, onun belə cəsarətli olduğunu bilmirdim. O gün onun yeni bir keyfiyyətini kəşf etmiş oldum. Onun

qəhrəmanlığı barədə eşidəndə, təəccüblənmədim. Azər elə-belə oğul deyildi, o, hərbdə də, sülh şəraitində də uğur qazanacaqdı. Heyf, ömrü yarıda qırıldı, amma bir təsəllimiz var ki, adı əbədi yaşayacaq. Azərlə fəxr edirəm.

Məhəmməd İmanov
Hərbi hazırlıq müəllimi

AZƏR ZİRVƏSİ

Bir müəllim, ana olaraq mənə Azər haqqında danışmaq çox çətindir. Azər körpəlikdən mənim gözümün qabağında böyüyüb. Hər səhər anasının əlindən tutaraq məktəbə gələn balaca Azər aylar-illər keçdi, böyüdü. 11-ci sinifdə oxuyan Azərin Vətən sevgisi onun hərbə marağını daha da artırırdı. Əsgərliyə gedən Azər əsgəri borcunu yerinə yetirib qayıdanda görüşməyə getdim. Onun hərbə marağını, həvəsini o vaxt hiss etdim. O, çox mehriban, qayğıkeş idi. Hər dəfə evlərinə gələndə mənimlə görüşər, hal-əhval tutardı. Gənc yaşında Azərin bu cür hörmətcilliyi, sədaqəti biz müəllimlərdə rəğbət doğururdu. Çox mehriban, istiqanlı idi, uşaqdan-böyüyə, hamıdan hal-əhval tutar, ünsiyyət qurardu. Azərin üzündən təbəssüm əskik olmaz, anasını xoş sözlərlə dilləndirərdi. Anasına həmişə ev işlərində kömək edər, anasına paltar alar, onun geyiminə fikir verərdi.

Mən bir müəllimi kimi Azər ucalığı ilə qurur duyuram, onunla fəxr edirəm. Amma çox çətindir. Hər səhər məktəbdə Azərin şəklinə baxanda ürəyimizdə,

yaddaşımızda onun özü canlanır. Gülərüz, mehriban Azəri indi bütün Azərbaycan tanıyır, indi o, Vətən oğludur, bu bizə təsəllidir. Eldən gedən Azərimizin ruhu şaddır, o, ən böyük məqsədinə çatdı, Qarabağ azaddır!

Pərvanə Alıyeva
Azər Yusiflinin keçmiş
sinif rəhbəri

GÖZLƏR ELÇİ DÜŞƏNDƏ

Mən Böyük Kəsik kəndində yaşayıram. Azərin oxuduğu məktəbdə işləyirəm. Azərlə bağlı deyəcəyim sözlər çoxdu əslində. Öncəliklə onu deyim ki, Azər kimi oğulu böyüdən ananın qarşısında baş əyirəm. Azər bu kənddə böyüyüb, boya-başa çatıb, uşaqlığı gözümüzün önündə keçib. Azər çox tərbiyəli uşaq idi. Bu gün Azər haqqında danışmaq çox çətindi. Azər haqqında Yeganə müəllimlə danışardıq hər zaman, anası

Azərin çox təmizkar, səliqəli, zövqlü olduğundan danışardı. Azər anasına çox bağlı idi. Mən ən çox Azərlə Songülün sevgisindən danışmaq istəyərdim. Mən ilk dəfə idi belə sevgiyə şahid olurdum. Kəndimizdə toy olurdu, axşam hər kəs mağara yığışırdı, kəndimizin cavanları rəqs edirdilər. Bir gün yenə toy vardı, Azər oradaydı, Songül də gəlmişdi. Azər dostlarıyla rəqs etsə də, gözünü Songüldən bir dəqiqə də ayırmadı, mən hələ onda Azərlə Songülün bir-birini sevdiklərini bilmirdim. Amma Azərin baxışları danışırdı, sözə ehtiyac yox idi. O baxışlar gözümdən getmir.

Mən Leyla müəllimin söhbətinə müdaxilə edib dedim: "Elədi, qızım, əvvəl gözlər bir-birinə elçi düşüb danışır. Azərlə, Songül kimi... Sonra...

Niyəsə əvvəllər yazmış olduğum "Qurbanın olum" şeirim xəyalımdan keçdi:

Gözlərin gözümə baxanda xoşam,
Hərdən şimşək kimi çaxanda xoşam.
Səma buludumsan, axanda xoşam,
Çətrimə dəyirsən, qurbanın olum.

Bu bəndlə şeirimi yekunlaşdırmaq istədim, Leyla müəllim isə " yox, yox , Güləmail xanım, davamını da deyin", dedi.

Sözün də şirindir şirin dil kimi,
Bitibsən bağçamda mənim gül kimi.
Nərgiz tək, lalə tək, qərənfil kimi,
Ətrimə dəyirsən, qurbanın olum.

Almışam Tanrının icazəsini,
Gəl yenə eşidim qələm səsini.
Düzəldib şeirimin qafiyəsini
Sətrimə dəyirsən, qurbanın olum.

Hicran dənizində itmək istəmə,
Özgə gülüstanda bitmək istəmə.
Sən mənim yanımdan getmək istəmə,
Xətrimə dəyirsən, qurbanın olum.

"Qurbanın olum" deyə-deyə Leyla qızımı dinləyirəm:

-Hələ onda Songülə üzük taxılmamışdı, ürəyimdə dedim, Allahım bu toydan tezliklə onlara da qismət et. Amma heç bilməzdim ki, etdiyim duamın səbəbkarları haqqında gün gələcək göz yaşıyla danışacağam. Songülə elçi gedildiyini eşidəndə o qədər sevinmişdim ki... Azərin çox gözəl zövqü olduğunu bilirdim, buna bir daha şahid oldum nişanlısına aldığı hədiyyələri görəndə. Nişandan sonra Qurban bayramında Songülü görməyə gedirdilər Yeganə müəllimgil. Aparacaqları tortu mən hazırlayası oldum, fikirləşdim ki, necə bəzəyim

ki, Azərin də, Songülün də xoşuna gəlsin. Yeganə müəllim gələndə mənə dedi ki, tort Azərin çox xoşuna gəlib, çox sevinmişdim. Dedim, inşallah toylarında onlar üçün çox gözəl tort hazırlayacağam. Amma qismət olmadı. Azər sevgisilə də, qəhrəmanlığıyla da dastan yazdı. Azər bütün ömrünü,bu qədər sevdiyi yarını, anasını Vətən torpağına fəda etdi. Bu gün azad etdiyi torpaqlarda azad gəzən insanlarımızın, köçkünlərimizin həsrətinə son qoydu Azər!

Amma Songülü, ailəsini ömürlük özünə həsrət qoydu getdi. İndi gözlərini gözündən çəkmədiyi Songülü məzarlıqda köç salıb.

Mən yenə də Leyla müəllimlə göz-gözə, söz-zözə gəldim, gözlərim dayandı, yol çəkdi məzarlığa... Bir anlıq duruxdum, dondum... Nə yazım axı mən fağır... Qorxuram...

Kimi şaddır, kimi ağlar, kimi zar,
Ağladandır, güldürəndir bu ruzgar.
Ömrü boyu itirən var, tapan var,
Tapdığımı itirməkdən qorxuram.

Fikirlərim qarma-qarışıq, bir sətirdən başqa sətrə, bir şeirdən başqa şeirə keçir...

Deməyin bu bədbin, naşı nə deyir?
Bilirəm, hicranın daşı nə deyir.
Bilirəm, gözümün yaşı nə deyir.
Ağlaya bilmirəm, gülə bilmirəm.
Yaşaya bilmirəm, ölə bilmirəm.

Allah "gəl" desəydi, çıxıb gedərdim,
Ömür sarayımı yıxıb gedərdim.
Yaxamdan çəkməyir əlini dərdim,
Çoxmu olacağam belə, bilmirəm.
Yaşaya bilmirəm, ölə bilmirəm.

Güləmail qalıb məlal içində,
Nə qədər vurnuxum xəyal içində.
Qalmışam çox çətin bir hal içində,
Dərdimi heç kəslə bölə bilmirəm.
Yaşaya bilmirəm, ölə bilmirəm.

Azərin nişanlısı, Azərin Songülü, könlümdən keçdi və dodaqlarım pıçıldadı, qələmim "Sevdiyim" yazdı:

Tənha susuz çiçəyəm,
Su olmasa da nə qəm.
Sevgini içəcəyəm,
Sevdiyim!

Leyla müəllim şagirdindən danışdıqca-danışır:

- Rayonumuzda bir küçəyə Azər Yusiflinin adı verildi. Daha çox istərdim ki, məktəbimiz də Azərin adını daşısın, övladlarımız Azər kimi böyüsünlər, mərd, igid, əsil kişi qeyrətli olsunlar. İnsan 70-80 il də yaşaya bilər, amma nə varlığı bilinər, nə ölüb gedəndə yoxluğu. Azər bu dünyada elə bir iz qoyub keçdi ki, o iz əbədi qalacaq. Sənin lə fəxr edirəm, elimin-obamın mərd, igid oğlu, şəhid qardaşım!

Leyla Eminova
Müəllim

Ucqar bir kənddə dünyaya gəlmişdi Azər, adi uşaqlardan biri idi, yeniyetmə yaşlarında da yaşıdlarından çox seçilmirdi. Amma böyük ürəyi vardı, böyük arzusu vardı. Böyük bir Vətəni ürəyinə sığdırmışdı, böyük bir amal uğruna ən çətin yolu seçmişdi, hərbi seçmişdi. Hərb – top səsidi, göydən yağan bombadı, qan-qadadı, amma hərbi o biri üzü sülhdür, sülh üçün savaşmalısan, Vətən üçün döyüşməlisən.

Azər, adını kim qoyub, oğlum? Kim imiş belə uzaqgörən? Bəlkə də alın yazında belə yazılıb, Azər Azərbaycan uğrunda canından keçəcək deyə, nida gəlib göylərdən? Bu dünyada təsadüfi heç nə yoxdur. Sən Vətənə "can" demisən, Vətən sənə "oğul" deyib. Vətən Müharibəsi Qəhrəmanı Azər Yusifli! Nə gözəl səslənir, deyilmi?!

* * *

İndikindən uzaq olsun, Şuşamızın işğaldakı çağları idi. 2011-ci ilin payızı idi, göydə durna qatarı gördüm, çox kövrəldim. Böyük şairimiz, Qarabağ xanının vəziri Vaqifin "Durnalar" qoşması keçdi könlümdən, ürəyimdə ölməz şairin misralarını nizama düzdükcə, öz "Durna qatarı"m pərvaz etdi:

Hara uçursunuz belə nizamla?
Məni də bağlayın qanadınıza.
Ey durna qatarı, bu intizamla
Məni də bağlayın qanadınıza.

Sizə ürəyimi açmaq istərəm,
Məkrdən, hiylədən qaçmaq istərəm.
Mən də sizin kimi uçmaq istərəm
Məni də bağlayın qanadınıza.

Məni də eyləyin uçuşa şərik,
Dumandan qurtulub, bulud keçərik.
Əgər yorulsanız, yerə düşərik,
Məni də bağlayın qanadınıza.

Məni də aparın, səmada süzək,
Hara meyl etsəniz orada süzək,
Yerdə çox gəzmişəm, havada süzək,
Məni də bağlayın qanadınıza.

Məni bulud kimi göylərdən asın,
Qanad yorulmasın, qol yorulmasın.
Elə bağlayın ki, ip qırılmasın,
Məni də bağlayın qanadınıza.

Ey durna qatarı, bu intizamla,
Məni də bağlayın qanadınıza.

Qarabağ həsrəti uzandıqca durna qatarları niskilimi daha da artırırdı. Aprel döyüşlərinin qəhrəmanı Samid İmanova "Durna lələyi" şeirimi həsr etmişdim. Aprel döyüşləri bir oyanış idi, sanki durnalar yurdumuza qayıdırdılar, həm də qələbə müjdəsilə...

DURNA LƏLƏYİ

O aprel səhəri niyə görəsən,
Buludlar üstünə qondu durnalar?
Torpağı ana tək bağrına basan,
Bir şəhidi görüb, dondu durnalar...

Əlində qumbara tənha şəhidi
Göydə ağlayırdı qərib durnalar...
Ana tək, bacı tək saçın yolurdu,
Lələyin çöllərə sərib durnalar...

Yağış tək yağırdı gözlərindən yaş,
Şəhidin nəşini yuyurdu sanki.
Durnalar o səhər insan olmuşdu,
Durnalar şəhidi duyurdu sanki!

Belə görməmişdim heç durnaları,
Getdiyi yolundan geriyə dönən.
Bəyaz lələkləri qar kimi yağan,
Ağlaşa-ağlaşa dəliyə dönən.

Axırı düzülüb öz qatarına,
Bir matəm havası çalıb getdilər.
Cismini tapşırıb ana torpağa,
Şəhidin ruhunu alıb getdilər.

Gözlərim cüt bulaq, dolduqca, dolsun,
Ölsəm də gözümü bağlamasınlar.
Allahım, qoy mənə nə olur-olsun,
Şəhid anaları ağlamasınlar.

Bir ana qəlbinin fəryadı ilə
Düşmənin səfini pozacağam mən.
Zəfər nəğməsini Cıdır düzündə
Durna lələyilə yazacağam mən.

AZƏRBAYCANIM

Mən sənə can dedim, çünki canda tən
Sənինlə canlanır, Azərbaycanım!
Dünyaya gələndən damarımda qan
Eşqinlə dolanır, Azərbaycanım!

Min fitnə sağında, mini solunda,
Aslan qüvvəsi var polad qolunda!
Gör neçə ildir ki, haqqın yolunda
Odlara qalanır Azərbaycanım!

Haqqa söykənibdi kökün, dayağın,
Uzaq ulduzlardan gəlir sorağın.
Harda ədalət var, üçrəng bayrağın
Orda dalğalanır, Azərbaycanım!

Mərmərədən Altay dağlarınacan,
Kazandan Təbrizin bağlarınacan
Hamı bir ağızdan sənə deyib can,
Səni qardaş sanır, Azərbaycanım!

Adınla qoşadır sevinc, səadət,
İnsana, millətə, haqqa məhəbbət.
Batıdan, Doğudan gör neçə millət
Sənə ünvanlanır, Azərbaycanım!

Güləmail səndən ilhama gəlir,
Pərvanədir, yanan bir şama gəlir.
Qutsal bayrağını salama gəlir,
Quş tək qanadlanır, Azərbaycanım!

Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin valideynləri müəllimdir. Oğullarının belə vətənpərvər yetişməsində heç şübhəsiz onların böyük xidmətləri var. Yeni nəslə Vətən sevgisi aşılayan, vətənpərvər nəsil yetişdirən müəllimlər haqqında ən dəyərli sözü Ümummilli Lidermiz Heydər Əliyev demişdir: ***"Mən müəllimdən yüksək ad tanımıram".***

Bizim xalqımız müəllimlərə böyük hörmət bəsləyir. Müəllim ikinci valideyin sayılır. Vətənini müdafiəyə qalxan, bu yolda canından keçən igidlərimizin vətənpərvər yetişməsində müəllimlərmizin əməyi böyükdür. Məktəbi bitirib, hərbi təhsil ocaqlarında hərbin sirlərini öyrənən müdavimlərin müəllimlərinə də xalqımız minnətdardır. Əsgər və zabitlələrmiz müəllimlərinin zəhmətini yerə vurmayıb, bu gün dünyanın ən şanlı ordusunda cəm olublar. Azərbaycan Ordusu xalqımızın and yeridir, qürur mənbəyidir. Dünya durduqca Azərbaycan da, Azərbaycan xalqı da, Azərbaycan Ordusu da var olsun!

AZƏRBAYCAN ORDUSU

Sən xalqımın aldığı nəfəsdən yaranmısan!
Azadlığa sevgidən, həvəsdən yaranmısan!
Oddan-alovdan keçən bir səsdən yaranmısan!
Dilimizin nidası, sözümüzün vurğusu -
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Bir əsr bundan öncə qoyulsa da təməlin,
Tarxilərin ən dərin qatına çatır əlin!
Azərbaycan eşqiylə bağlıdır hər əməlin!
Biləklərin qüdrəti, ürəklərin duyğusu -
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Cavanşir tarixlərə adını qanla yazıb!
Babək bayraq qaldırıb, zülmə üsyanla yazıb!
Koroğlu nərə çəkib, qılınc-qalxanla yazıb!
Vətənimin qeyrəti, torpağımın namusu-
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Keçdi neçə yüzillər, sən yenidən yarandın!
Torpağımın ruhuna sanki bədən yarandın!
Nə yaxşı sən doğuldun, nə yaxşı sən yarandın!
Cavanların təpəri, körpələrin yuxusu -
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Əliağa Şıxlinski sənə yaran, ol dedi!
General Mehmandarov marş, irəli, sol dedi!
Ana Vətən dil açdı, sənə yaxşı yol dedi!
Hər atanın övladı, hər ananın yavrusu -
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Sular axıb, bulanıb, coşan ümmana dönüb!
Nuhun zamanı kimi sanki tufana dönüb!
Heydər baba yenidən Azərbaycana dönüb,
Hayladı, gözlərində qalmadı bu arzusu -
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Yurdun hər qarışını sən qorudun qanınla!
Torpaqlara can verdin nəfəsinlə, canınla!
İftixar mənbəyimsən öz adınla, sanınla!
Sarsıda bilməz səni heç bir düşmən qurğusu!
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Ali Baş Komandanım durur sənin başında!
Xalqın ümid yerisən Qarabağ savaşında!
Salamlayıram səni mübarək yüz yaşında!
Nə qədər yazsam, yenə qaldı sözün çoxusu...
Azərbaycan ordusu, Azərbaycan ordusu!

Kitabın içindəkilər:

Redaktordan 5
Qəhrəmanliq dastanı 12
Tarixi yaşadan ədəbiyyat 14
Giriş 22
Sərhədçilər 25
Azərbaycan Respublikası Prezidentinin S Ə R Ə N C A M I 28
Zəfərnamə 48
Yaz, şair, qəlbimdən keçənləri yaz! 81
Yaxşı igid dayısına çəkər 89
Xatirələr işığında 93
Ölməzlik 97
İlanboğan 101
Azər zirvəsi 104
Gözlər elçi düşəndə 106
Durna lələyi 114
Azərbaycanım 116
Azərbaycan ordusu 118

GÜLƏMAİL MURAD

ZƏFƏRNAMƏ

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 08.10.2021
Şərti çap vərəqi 7,7. Sifariş № 302
Kağız formatı 60x84 1/16. Tiraj 300
Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4